

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

27 avqust 2026-cı il, cümə axşamı
№ 153 (7220)
Qiyməti 60 qəpik







## Prezident İlham Əliyev “Sabah” futbol klubunu təbrik edib

Bax səh. 2

# 2 açılış, 1 ziyarət

## Mehriban Əliyevanın iştirakı ilə...








Bax səh. 2

## Birinci vitse-prezidentə təbriklər

Bax səh. 2

## Azərbaycan-Özbəkistan münasibətləri: Humanitar diplomatiyanın möhtəşəm gücü

İndiki qlobal və regional gərginliklər fonunda xoş mərama əsaslanan Azərbaycan - Özbəkistan əlaqələri müsbət və nadir nümunələrdən biri kimi diqqət çəkir. Iki ölkə arasında geniş əhatə dairəsinə malik olan münasibətlər yüksək dinamika ilə inkişaf edir və müxtəlif platformalarda uzlaşdırılmış fəaliyyətlər hər iki tərəfə böyük fayda gətirir. Diqqət çəkən mühüm məqamlardan biri ondan ibarətdir ki, Azərbaycanla Özbəkistan arasında qarşılıqlı münasibətlərin dərinləşməsinə həm dövlətlər səviyyəsində güclü siyasi iradə göstərilir, həm də bunu cəmiyyətlər istəyir.

İkitərəfli əlaqələrin belə nümunəvi qaydada inkişafına isə bir sıra amillər güclü impuls verir. Burada mədəni-humanitar diplomatiyanın rolunu və möhtəşəm gücünü isə ayrıca qeyd etmək lazımdır. Prezident İlham Əliyev bu günlərdə Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində bu məqama xüsusi vurğu edib. Azərbaycan ilə Özbəkistan arasında ortaq köklərə, dil və mədəni yaxınlığa, əsrlər boyu formalaşan mənəvi dəyərlərə əsaslanan mədəni və humanitar əməkdaşlıq münasibətlərin ayrılmaz və vacib sahəsidir. Bu sahədə həyata keçirilən əməkdaşlıq xalqlarımız arasında qarşılıqlı anlaşmanın, etimadın, dostluğun və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə mühüm töhfə verir, humanitar əlaqələri yeni məzmunla zənginləşdirir. “Xalqlarımızın qarşılıqlı səyləri və dövlətlərimizin birgə dəstəyi sayəsində son illərdə mədəni-humanitar əlaqələr uğurla inkişaf edir. Birgə keçirilən mədəniyyət günləri...

Bax səh. 3

## Xəzərin iki sahili birləşir...



Bax səh. 4

## Xəzər regionunda yeni əməkdaşlıq formatı

Bax səh. 5

## Türkiyədə BMT-nin iqlim diplomatiyası təcrübədən keçiriləcək

Bax səh. 6

## Qara fələyin ağ maskası

Bax səh. 7

## Prezidentin Özbəkistana dövlət səfəri dünya mediasında

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri Rusiya media məkanında geniş işıqlandırılır. Rusiya nəşrlərinin diqqət mərkəzində iki ölkə liderlərinin danışıqları, Əbədi dostluq haqqında Müqavilənin imzalanması, iqtisadi-ticari və nəqliyyat əməkdaşlığının inkişafı, həmçinin Bakı və Daşkəndin yeni birgə layihələri dayanır.

TASS agentliyi Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən Əbədi dostluq haqqında Müqavilənin imzalanmasına xüsusi diqqət ayırır. Nəşr qeyd edir ki, dövlət başçıları qarşılıqlı ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılması proqramı, həmçinin turizm və mədəniyyət sahələrində əməkdaşlıq haqqında sazişlər də daxil olmaqla, bir sıra digər sənədlər də imzalayıblar.

“İnterfaks” agentliyi danışıqların nəticələri və Azərbaycan ilə Özbəkistan arasında Ali Dövlətlərarası Şuranın üçüncü iclası barədə ətraflı məlumat yayıb. Nəşrin məlumatlarında qeyd olunur ki, tərəflər strateji tərəfdaşlığı və müttəfiqlik münasibətlərini daha da dərinləşdirmək, sənaye kooperasiyasını genişləndirmək və birgə investisiya şirkətinin imkanlarından daha fəal istifadə etmək niyyətindədirlər.

“İnterfaks” nəqliyyat əməkdaşlığına ayrıca diqqət yetirir. Agentlik Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Daşkəndin Xəzər dənizində vahid operatorun fəaliyyət göstərəcəyi ayrıca Özbəkistan-Azərbaycan nəqliyyat dəhlizinin yaradılmasında və Orta Dəhlizin inkişafı çərçivəsində birgə donanmanın fəaliyyətə başlamasının sürətləndirilməsində maraqlı olması barədə açıqlamasını yayıb...

Bax səh. 4



## Dünyanın ən böyük qlobal enerji böhranı

Bax səh. 6



## Qızıl yenidən bahalaşır

Bax səh. 5

# Prezident İlham Əliyev “Sabah” futbol klubunu təbrik edib

Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında “Sabah” futbol komandasının UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması münasibətilə paylaşım edilib.

Paylaşımı təqdim edirik:

“Sabah” futbol klubunu möhtəşəm zəfər qazanaraq UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə əldə etməsi münasibətilə ürəkdən təbrik edirəm.

Yeni yaradılmış bir komandanın qısa müddət ərzində belə böyük nailiyyətə imza atması xüsusi sevinc və qürur doğurur. Klublarımızın ardıcıl ikinci dəfə dünyanın ən güclü klub turnirinin əsas mərhələsində mübarizə aparmaq hüququ qazanması Azərbaycanın bütün sahələrdə əldə etdiyi tərəqqinin, ölkəmizin idman dövləti kimi mövqeyinin daha bir bariz göstəricisidir.

“Sabah” klubuna qarşıdakı matçlarda yeni-yeni qələbələr və uğurlar arzulayıram!”.

# 2 açılış, 1 ziyarət

## Mehriban Əliyevanın iştirakı ilə...

## Birinci vitse-prezident Mehriban Əliyeva Bilgəh incəsənət məktəbinin açılışında iştirak edib



Avqustun 26-da Bakıda Bilgəh incəsənət məktəbinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Arzu Əliyeva açılışda iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli incəsənət məktəbində görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Bilgəh incəsənət məktəbi Bilgəh qəsəbə Mədəniyyət Evi, 27 nömrəli uşaq musiqi məktəbi və Sabunçu rayon mərkəzləşdirilmiş kitabxana sisteminin 10 nömrəli kitabxana filialının fəaliyyətlərinin optimallaşdırılması nəticəsində yaradılıb.

Qeyd edək ki, Bilgəh qəsəbə Mədəniyyət Evinin inzibati binası 1987-ci ildə inşa olunduğundan ötən müddət ərzində köhnələrək istifadəyə yararsız vəziyyətə düşmüşdü. Bu səbəbdən Heydər Əliyev Fondu tərəfindən 220 yerlik yeni məktəb binası inşa olunub.

Zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə təchiz edilən təhsil müəssisəsinin binasında musiqi, nəzəriyyə, xor, fotoqrafiya, rəssamlıq, heykəltaraşlıq, dizayn otaqları, xoreoqrafiya və akt zalları, qarderob, kitabxana və yeməkxana var.



Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri də görülüb.







## Bakının Nəsimi rayonunda yeni körpələr evi-uşaq bağçası istifadəyə verilib

Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 116 yerlik uşaq bağçası kimi istifadəyə verilən müəssisə 1972-ci ildən eşitmə qabiliyyəti pozulmuş binada əsaslı təmir işləri aparılıb və yeni korpus inşa olunub.

Yeni körpələr evi-uşaq bağçasında eşitmə qabiliyyəti pozulmuş uşaqlar

Körpələr evi-uşaq bağçasında surdoloq, oyun və yataq otaqları, idman, tədbir, musiqi və rəqs zalları, tibb, geyinib-soyunma və müəllimlər otaqları var.







və Arzu Əliyeva Bakının Nəsimi rayonunda 352 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov körpələr evi-uşaq bağçasında uşaqların respublika ixtisaslaşdırılmış körpələr evi-uşaq bağçası kimi fəaliyyət göstərib. Hazırda isə 352 saylı körpələr evi-uşaq bağçası kimi fəaliyyətini davam etdirir.

Heydər Əliyev Fondunun dəstəyi ilə üçün xüsusi qrup saxlanılmaqla, uşaqların məktəbəqədər təhsil və tərbiyə almalarına hər cür şərait yaradılıb. Eşitmə qabiliyyəti pozulmuş uşaqlar üçün burada 36 yerlik ikimərtəbəli əlavə korpus inşa olunub.

Surdoloq kabinetləri, dərs, oyun otaqları zəruri avadanlıqlar və mebellərlə təmin olunub.

Uşaqlar üçün açıq havada oyun və idman meydançaları salınıb, söhbətgahlar quraşdırılıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva Elmi-Tədqiqat Pediatriya İnstitutunu ziyarət edib





Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunu ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev Birinci vitse-prezident Mehriban Əliyevaya İnstitutun fəaliyyəti barədə məlumat verdi.

Qeyd olundu ki, Elmi-Tədqiqat Pediatriya İnstitutu bir əsrdən çoxdur uşaqların sağlamlığının qorunması kimi mühüm və nəcib işə xidmət edir.

Hazırda elmi-metodik mərkəz kimi fəaliyyət göstərən bu tibb müəssisəsi 1925-ci ildə 200 çarpayılıq uşaq xəstəxanasının bazasında təşkil olunub, 1927-ci ildə yenidən qurularaq Ana və Uşaqları Mühafizə İnstitutuna çevrilib. Burada uşaqların müalicə-profilaktikası ilə yanaşı, pediatriya sahəsində peşəkar tibbi kadrların hazırlanması, elmi tədqiqatların aparılması, mövcud tibb təhsilinin təkmilləşdirilməsi həyata keçirilir. İnstitutda 255 çarpayılıq klinik şöbələr, elmi və bir çox paraklinik bölmələr var. Yenidoğulanların 60 çarpayılıq reanimasiyası və intensiv terapiyası şöbəsi respublika üzrə mərkəz funksiyasını yerinə yetirir.

Birinci vitse-prezident və qızları ziyarət zamanı institutda yaradılmış şəraitlə tanış oldular. Həmçinin gələcəkdə fəaliyyətin təkmilləşdirilməsi üçün instituta avadanlıqlar - süni ventilyasiya aparatları hədiyyə edilib.





## Birinci vitse-prezidentə təbriklər

Avqustun 26-da Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Əminə Ərdoğan Birinci vitse-prezident Mehriban Əliyevanı ad günü münasibətilə təbrik edərək, ona möhkəm cansağlığı və yeni müvəffəqiyyətlər arzulayıb.

Türkiyənin birinci xanımı Əminə Ərdoğan Mehriban Əliyevanın xeyirxah fəaliyyətinin dünyada böyük rəğbətlə qarşılandığını vurğulayıb.

Azərbaycanın Birinci vitse-prezidenti göstərilən diqqətə və təbriklərə görə təşəkkür edib.

Telefon söhbəti əsnasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Türkiyənin birinci xanımı Əminə Ərdoğanın səmimi görüşləri məmnunluqla xatırlanıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Türkiyənin birinci xanımı Əminə Ərdoğan qardaşlıq və strateji müttəfiqlik əlaqələrimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildiriblər.

***

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Azərbaycanın Birinci vitse-prezidentini ad günü münasibətilə təbrik edib, möhkəm cansağlığı və yeni uğurlar arzulayıb.

Valentina Matviyenko Birinci vitse-prezident Mehriban Əliyeva ilə səmimi görüşlərini məmnunluqla xatırlayıb, onun Azərbaycan-Rusiya dostluq münasibətlərinin inkişafında rolunu vurğulayıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva göstərilən diqqətə və təbriklərə görə minnətdarlığını bildirib.

***

Avqustun 26-da Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Ziroatxon Mirziyoyeva Mehriban Əliyevanı ad günü münasibətilə təbrik edərək, səmimi arzularını çatdırıb.

O, bir neçə gün əvvəl Azərbaycanın Birinci vitse-prezidenti ilə Özbəkistanda görüşlərini ən xoş təəssüratlarla xatırlayıb.

Ziroatxon Mirziyoyeva Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin, nəcib təşəbbüslərinin yalnız Azərbaycanda deyil, bütün dünyada böyük rəğbət qazandığını vurğulayıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva göstərilən diqqətə və təbriklərə görə Ziroatxon Mirziyoyevaya təşəkkür edib.

Birinci vitse-prezident Mehriban Əliyeva da öz növbəsində Özbəkistana səfərini məmnunluqla xatırlayaraq, göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirib.

***

Avqustun 26-da Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın doğum günü olub. Bu münasibətlə Mehriban xanım Əliyevanın ünvanına saysız təbriklər daxil olub.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko, Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Rusiyanın “VTB Bank” Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri Andrey Kostin, Rusiyanın “SAFMAR” Qrupu” Səhmdar Cəmiyyətinin prezidenti Mixail Qutseriyev, “Nebesnaya qratsiya” Beynəlxalq İdmana Dəstək Assosiasiyasının prezidenti, Olimpiya çempionu Alina Kabayeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Zəhra Pezeşkian, Rusiyalı sahibkar Alişer Usmanov və digər rəsmi şəxslər, tanınmış ictimai xadimlər Azərbaycanın Birinci vitse-prezidentini təbrik ediblər.

# Azərbaycan-Özbəkistan münasibətləri: Humanitar diplomatiyanın möhtəşəm gücü

İndiki qlobal və regional gərginliklər fonunda xoş məram əsaslanan Azərbaycan - Özbəkistan əlaqələri müsbət və nadir nümunələrdən biri kimi diqqət çəkir. Iki ölkə arasında geniş əhatə dairəsinə malik olan münasibətlər yüksək dinamika ilə inkişaf edir və müxtəlif platformalarda uzlaşdırılmış fəaliyyətlər hər iki tərəfə böyük fayda gətirir. Diqqət çəkən mühüm məqamlardan biri ondan ibarətdir ki, Azərbaycanla Özbəkistan arasında qarşılıqlı münasibətlərin dərinləşməsinə həm dövlətlər səviyyəsində güclü siyasi iradə göstərilir, həm də bunu cəmiyyətlər istəyir.






## Mədəni-humanitar əlaqələr uğurla inkişaf edir

İkitərəfli əlaqələrin belə nümunəvi qaydada inkişafına isə bir sıra amillər güclü impuls verir. Burada mədəni-humanitar diplomatiyanın rolunu və möhtəşəm gücünü isə ayrıca qeyd etmək lazımdır. Prezident İlham Əliyev bu günlərdə Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində bu məqama xüsusi vurğu edib. Azərbaycan ilə Özbəkistan arasında ortaq köklərə, dil və mədəni yaxınlığa, əsrlər boyu formalaşan mənəvi dəyərlərə əsaslanan mədəni və humanitar əməkdaşlıq münasibətlərin ayrılmaz və vacib sahəsidir. Bu sahədə həyata keçirilən əməkdaşlıq xalqlarımız arasında qarşılıqlı anlaşmanın, etimadın, dostluğun və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə mühüm töhfə verir, humanitar əlaqələri yeni məzmunla zənginləşdirir. "Xalqlarımızın qarşılıqlı səyləri və dövlətlərimizin birgə dəstəyi sayəsində son illərdə mədəni-humanitar əlaqələr uğurla inkişaf edir. Birgə keçirilən mədəniyyət günləri, incəsənət festivalları, elmi konfranslar, ədəbi nəşrlər və təhsil proqramları iki ölkə arasında mədəni və humanitar gündəliyin möhkəmlənməsində xüsusi rol oynayır", - deyə dövlətimizin başçısı vurğulayıb.

İki dost ölkə arasında mədəni-humanitar sahədə əlaqələrin genişlənməsinə aid çoxlu sayda nümunələr sadalamaq mümkündür. 2023-cü və 2025-ci illərdə Azərbaycan Özbəkistan Mədəniyyəti Günlərinə, 2024-cü ildə isə Özbəkistan Azərbaycan Mədəniyyəti Günlərinə ev sahibliyi edib, həmin il Xivə şəhərində "Şuşa Günləri" keçirilib. Özbəkistandan gələn geniştərkibli nümayəndə heyəti Bakıda keçirilən Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsində iştirak edib. Eyni zamanda, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev "Türk Dünyası Həftəsi"nin iştirakçılarına ünvanladığı müraciətdə Birinci Türkoloji Qurultayı türk xalqlarının elmi, mədəni və ictimai həyatının inkişafında yeni bir dövrün başlanğıcını qoyan tarixi hadisə kimi dəyərləndirib.

Dost ölkənin dövlət başçısı müraciətində "Türk dünyası nümayəndələri ilə birlikdə bu forumun keçirilməsini türk xalqlarını birləşdirən ortaq dəyərlərə göstərilən yüksək ehtiramın təzahürü kimi qiymətləndiririk. Bu, türk xalqları arasında dostluq və birliyin daha da möhkəmləndirilməsi baxımından mühüm tarixi addım olacaq", - deyə bildirib.

Ötən il iki ölkənin dostluq, qardaşlıq tarixində daha bir səhifə açıldı. Söhbət dövlət başçılarının birgə iştirakı ilə Bakının mərkəzində "Özbəkistan" parkının təməlinin qoyulmasından gedir. "Özbəkistan" parkı böyükmiqyaslı mədəni-rekreasiya layihəsidir. Burada Özbəkistanın, o cümlədən Daşkənd, Səmərqənd, Buxara, Xivə və Kokand regionlarının zəngin tarixini, memarlığını və mədəniyyətini əks etdirəcək nadir mühit yaradılacaq. Sahəsi 5 hektar olacaq park Özbəkistanın xəritəsi formasında salınacaq. Burada muzey, kinoteatr, amfiteatr, qüllə, Özbəkistanın milli mətbəx nümunələrinin təqdim olunacağı restoran və kafelər, ticarət zonası, suvenir və hədiyyələr mağazaları, zoopark, mehmanxana da fəaliyyət göstərəcək. Parkın əsas obyektləri Buxara, Səmərqənd və Xivədəki memarlıq nümunələri olacaq. Paytaxtdakı Ağ Şəhərdə salınacaq bu park Azərbaycan və Özbəkistan dövlətləri və xalqları arasında tarixən mövcud olan qardaşlığın, dostluğun rəmzidir. Şübhə yoxdur ki, bu parkın salınması ilə xalqların mədəni əlaqələri daha da möhkəmlənəcək.

Azərbaycanın dövlət başçısının dost ölkəyə bu günlərdə baş tutan növbəti dövlət səfəri çərçivəsində isə Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev Yeni Daşkənd şəhərində "Azərbaycan" parkının təməlini qoyublar. Parkda Azərbaycanın zəngin mədəniyyətini, çoxəsrlik tarixini və ənənələrini əks etdirəcək ictimai məkan yaradılacaq. Park Azərbaycanın və Özbəkistanın qardaş xalqlarının daha da yaxınlaşması baxımından mühüm rol oynayır.



Bakıda "Özbəkistan", Yeni Daşkənddə isə "Azərbaycan" parkının salınması xalqlarımız arasındakı çoxəsrlik dostluğun, qarşılıqlı hörmətin və mədəni yaxınlığın, həmçinin Azərbaycanla Özbəkistanın möhkəm və dinamik inkişaf edən münasibətlərinin növbəti rəmzi olacaq.

Zamanında Azərbaycan-Özbəkistan əlaqələrinin möhkəmlənməsində Ulu Öndər Heydər Əliyevin böyük rolu olub. Buna görə də hazırda qardaş ölkədə böyük siyasətçi, bütün türk dünyasının qürur mənbəyi Heydər Əliyevin əziz xatirəsi dərin minnətdarlıq hissi ilə xatırlanır. Bunun təzahürü olaraq Özbəkistanda Heydər Əliyev mərkəzi yaradılıb. Mərkəzin təntənəli açılışı 2012-ci il mayın 10-da - Ulu Öndər anadan olduğu gündə baş tutub. Mərkəzin fəaliyyət istiqaməti Azərbaycan mədəniyyətinin, tarixinin, dilinin və irsinin Özbəkistanda təbliğidir. Bundan başqa, 2022-ci il 21iyun tarixində dövlət başçılarının iştirakı ilə Daşkənddə Ulu Öndərin adını daşıyan küçədə Heydər Əliyev Meydanının açılışı olub. Dost ölkədə dövlət səfərində olan Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev açılış mərasimində iştirak ediblər. Meydan paytaxtın Mirabad rayonunda azərbaycanlıların yığcam yaşadıqları ərazidə yerləşir. Ətrafdakı binalar abadlaşdırılıb. Meydanın ərazisi tamamilə yenidən qurulub, burada yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb. Meydanın mərkəzi hissəsində Ulu Öndər Heydər Əliyevin böyük memorial kompleksi ucaldılıb. Yeri gəlmişkən, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən təşəbbüslər və layihələr də iki ölkə arasında mədəni və humanitar əməkdaşlığın genişləndirilməsində böyük əhəmiyyətə malikdir.

## Təhsil sahəsində genişlənən əməkdaşlıq

Azərbaycanla Özbəkistan arasında genişlənən mədəni-humanitar diplomatiyanın mühüm bir istiqamətini təhsil sahəsində sıx əməkdaşlıq təşkil edir. Qardaş ölkənin ən qədim və nüfuzlu ali təhsil müəssisələrindən biri olan Özbəkistan Milli Pedaqoji Universiteti dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyır ki, bu da son dərəcə qürurvericidir. Bu təhsil müəssisəsi 1935-ci ildə Orta Asiya Dövlət Universitetinin bazası əsasında yaradılıb. 2004-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə universitetin qarşısındakı meydanda dahi Nizaminin büstünün açılışı olub. 2008-ci ildə təhsil müəssisəsinin bazasında Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyəti yaradılıb.

Azərbaycanın dövlət başçısının qardaş ölkəyə bu günlərdə baş tutan növbəti dövlət səfəri çərçivəsində isə Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin yeni binasının açılış mərasimində iştirak ediblər. Dövlət başçıları universitetin həyətində ağac əkiblər.

Hazırda universitetin strukturunda 6 ali pedaqoji məktəb, həmçinin 1 Birgə Təhsil Ali Məktəbi və 1 magistratura şöbəsi fəaliyyət göstərir. Burada, ümumilikdə, 33 kafedra var. Universitetdə bakalavriat üzrə 38, magistratura üzrə isə 31 ixtisasda kadrlar hazırlanır. 730 müəllim və elmi-pedaqoji işçinin çalışdığı universitetdə 17 mindən çox tələbə, o cümlədən 6 Azərbaycan vətəndaşı olan tələbə, magistrant və müstəqil tədqiqatçı kimi təhsil alır. Eyni zamanda, burada dünyanın 13 ölkəsindən 250 nəfər təhsilini davam etdirir.

Universitetdə beynəlxalq təhsil proqramlarının tətbiqinə də xüsusi yer ayrılır. Təhsil ocağı dünyanın 20 ölkəsindən 15 beynəlxalq təhsil təşkilatı və 127 universitetlə, həmçinin UNESCO və UNICEF ilə sıx əməkdaşlıq qurub. Burada 12 birgə təhsil proqramı həyata keçirilir. Həmçinin, 4 beynəlxalq təhsil və mədəniyyət mərkəzi - Azərbaycan, Qazaxıstan, Cənubi Koreya və Çin mərkəzləri fəaliyyət göstərir.

Nizami Gəncəvi adına Milli Pedaqoji Universitet Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə anlaşma memorandumları imzalayıb. Bu əməkdaşlıq çərçivəsində birgə elmi tədqiqatlar və beynəlxalq konfranslar, təhsil və elmi təcrübə mübadiləsi, həmçinin mədəni-maarif əlaqələri inkişaf etdirilir. Ölkəmizlə əməkdaşlıq çərçivəsində Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin ilk 5 məzunu qrant əsasında bu universitetdə təhsil almaq hüququ qazanıb.

"Yeni Daşkənd" ərazisində 40 hektar sahədə universitetin yeni kampusunun tikintisi həyata keçirilir. Layihə, ümumilikdə, 20 min nəfərlik tədris korpuslarının, həmçinin 5 min nəfərlik tələbə yataqxanalarının yaradılmasını nəzərdə tutur. Yeni kampusda Nizami Gəncəvi Muzeyi və universitetin tarix muzeyləri olacaq.

Dövlət başçıları burada təhsil ocağının müəllim və tələbə heyəti ilə görüşüb, onlarla söhbət ediblər.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və təşkilatçılığı ilə 2023-cü ilin oktyabr ayında Urgənc Dövlət Universitetində tanınmış ədəbi və ictimai xadim Yusif Vəzir Çəmənzəminli adına Azərbaycan mədəniyyəti və ədəbiyyatı Mərkəzinin açılışı olub. Açılış mərasimi Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və təşkilatçılığı ilə Özbəkistanın Daşkənd və Xarəzm vilayətlərində keçirilən "Azərbaycan mədəniyyəti və poeziyası həftəliyi" çərçivəsində təşkil edilib. Qeyd edək ki, Özbəkistanın Xarəzm vilayətinin qocaman ali təhsil ocaqlarından olan Urgənc Dövlət Universiteti 1925-ci ildə yaradılıb və hazırda universitetin 9 fakültəsində 93 ixtisas üzrə 20 mindən çox tələbə təhsil alır.

Prezident İlham Əliyev bildirib ki, təhsil sahəsində əməkdaşlıq Azərbaycan ilə Özbəkistan arasında mədəni-humanitar tərəfdaşlığın aparıcı sahələrindən biri kimi çıxış edir. 2025-2026-cı tədris ilində Özbəkistanın 67 vətəndaşı Azərbaycanda, Azərbaycanın 176 vətəndaşı isə Özbəkistanda təhsil alıb. Özbəkistanın təşəbbüsü ilə inşa edilən və Füzuli şəhərində fəaliyyət göstərən Mirzə Uluqbəy adına orta məktəb təhsil sahəsində əməkdaşlığın ən parlaq nümunələrindən biridir və ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin daha bir təzahürüdür. Məktəbin açılışı 2023-cü il 23 avqust tarixində Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyevanın iştirakı ilə baş tutub. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Prezident İlham Əliyev müsahibəsində vurğulayıb ki, bu nəcib təşəbbüsə, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə bərpa və tikinti işlərinə göstərilən dəstəyə görə bütün Özbəkistan xalqına və şəxsən Prezident Şavkat Mirziyoyevə səmimi minnətdarlığımızı bildiririk.

## Cəmiyyətlərin bir-birinə dərin rəğbəti

Yuxarıda vurğuladığımız kimi, hər iki ölkənin xalqları, cəmiyyətləri bir-birinə dərin rəğbət bəsləyir. Bunun təzahürü olaraq media sektorunda əməkdaşlıq mühüm nəticələrlə yadda qalıb. 2024-cü il sentyabrın 23-25-də Daşkənddə 1-ci Özbəkistan-Azərbaycan Media Forumu, 2025-ci il sentyabrın 29-da isə Bakıda 2-ci Azərbaycan-Özbəkistan Media Forumu keçirilib. 2023-cü ildə Füzulidə 1-ci Azərbaycan-Özbəkistan QHT Əməkdaşlıq Forumu, 2024-cü ildə isə Daşkənddə 2-ci Özbəkistan-Azərbaycan QHT Əməkdaşlıq Forumu təşkil olunub. Bu forumların praktik nəticəsi olaraq, 2026-cı ildə iki qardaş ölkə birlikdə ilk dəfə QHT-lər üçün qrant müsabiqəsi elan edib. Həmin müsabiqənin nəticələrinə əsasən, Azərbaycandan qalib layihələr Özbəkistanda, Özbəkistandan qalib layihələr isə Azərbaycanda həyata keçiriləcək.

Gəmiyyətlərin yaxınlaşmasından bəhs edərkən regionlararası əməkdaşlığın uğurlu inkişafını xüsusi qeyd etmək mümkündür. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu gün xalqlarımızı daha da yaxınlaşdıran, ortaq tarixi, mədəni və mənəvi dəyərləri qoruyan, gələcək nəsillər arasında dostluğu və qarşılıqlı etimadı gücləndirən əməkdaşlıq üçün mühüm platformalardan biri olan Azərbaycan ilə Özbəkistan arasında qardaşlaşmış şəhər təşəbbüsləri xüsusilə əhəmiyyətlidir. İndiyədək Bakı-Daşkənd, İsmayıllı-Riştan, Şuşa-Xivə, Lənkəran-Buxara, Şəki-Kokənd, Biləsuvar-Termez, Mingəçevir-Namanqan, Füzuli-Gülüstan, Quba-Cizak və Beyləqan-Şəhrisəbz şəhərləri arasında qardaşlaşmış şəhər və tərəfdaşlıq münasibətləri qurulub. Naxçıvan və Ürgənc arasında yaxın vaxtlarda qardaşlaşmış şəhər münasibətlərinin qurulması planlaşdırılır. "Beləliklə, Azərbaycan ilə Özbəkistan arasında mədəni-humanitar əməkdaşlıq təkcə ikitərəfli münasibətlərin vacib sahəsi deyil, həm də ortaq dəyərlərimizi, zəngin mədəni irsimizi və xalqlarımız arasındakı qardaşlıq bağlarını qoruyan gələcəyə yönəlmiş strateji humanitar körpüdür", - deyə dövlətimizin başçısı vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# Ağstafada partiya veteranı Akif Abbasovun 85 illik yubileyi qeyd olunub











Yeni Azərbaycan Partiyası (YAP) Ağstafa rayon təşkilatının təşkilatçılığı, Ağstafa Rayon İcra Hakimiyyətinin dəstəyi ilə partiya veteranı Abbasov Akif Abbas oğlunun anadan olmasının 85 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə YAP Mərkəzi Aparatı rəhbərinin müavini Ramilə Bədəlova, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov, YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov, YAP Ağstafa rayon təşkilatının sədri Etibar Hacıyev, şəhid ailələri, qazilər, partiya fəalları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər - Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov, YAP Mərkəzi Aparatı rəhbərinin müavini Ramilə Bədəlova, Qazax Xeyriyyə Cəmiyyətinin sədri İlham Pirməmmədov, Bakı Dövlət Universitetinin (Qazax filialı) riyaziyyat kafedrasının müdiri Hüseyn Xəlilov, ailə üzvü Vaqif Abbasov, partiya veteranı Əli Əliyev yubilyarı təbrik edərək ona möhkəm cansağlığı, uzun ömür arzulayıblar. Qeyd olunub ki, Akif Abbasov uzun illər partiya ideyalarının təbliği və ictimai fəaliyyətin gücləndirilməsi istiqamətində mühüm töhfələr verib.

Sonra Yeni Azərbaycan Partiyası və Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən yubilyara Fəxri Fərman, xatirə hədiyyələri təqdim edilib.

Partiya veteranı Akif Abbasov çıxış edərək göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib, Yeni Azərbaycan Partiyası sıralarında təmsil olunmasının onun üçün böyük qürur olduğunu söyləyib. Vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyaları, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyəti Azərbaycana möhtəşəm nailiyyətlər qazandırıb.

Daha sonra tədbir konsert proqramı ilə davam etdirilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Xəzər regionunda yeni əməkdaşlıq formatı

## Böyük Britaniyanın "Interocean Group" şirkəti "Green Line Shipping" şirkəti ilə yeni birgə müəssisə yaradıb

Böyük Britaniyanın "Interocean Group" şirkəti Bakıda fəaliyyət göstərən "Green Line Shipping" ilə yeni birgə müəssisə təsis edib. Birgə müəssisə "Interocean Group"a daxil olan "Interocean Energy Services FZCO" şirkəti ilə Bakıda fəaliyyət göstərən "Green Line Shipping LLC" arasında yaradılıb. Bu əməkdaşlıq "Interocean Group"un Azərbaycanda və daha geniş Xəzər regionunda uzunmüddətli fəaliyyətini gücləndirməyə yönəlib. Əməkdaşlıq "Interocean Group"un beynəlxalq standartları və dənizdə əməliyyatlar sahəsində təcrübəsi ilə "Green Line Shipping"in yerli bazarı və regionu yaxşı bilməsi, habelə formalaşmış icra təcrübəsini bir araya gətirəcək. Bununla da mövcud və gələcək müştərilərlə iş üçün regionda daha güclü platformanın yaradılması hədəflənir.

Tərəfdaşlıq strateji, qeyri-səhm əsaslı əməkdaşlıq və birgə müəssisə çərçivəsidir, strateji "non-equity" (bizneslər birləşmir və ya satın alınmır) xarakteri daşıyır. Tərəflər dəniz və ofşor enerji xidmətləri, gəmi idarəetməsi, dəniz sığortası və aktivlər üçün kompleks həllər sahəsində layihələri birgə qiymətləndirmək və onların həyata keçirilməsi modellərini müəyyən etmək niyyətindədir.

### Dəniz hövzəsinə yeni investisiyalar

Razılaşma "Interocean Group"un mühüm dənizçilik və dənizdə enerji bazarlarında genişlənməsi strategiyasının növbəti mərhələsidir. 2007-ci ildə yaradılan "Interocean Group" beynəlxalq təcrübə, texniki imkanlar, korporativ idarəetmə, layihələrin icrası sistemləri və inteqrasiya olunmuş aktiv həlləri sahəsində ekspertizasını təqdim edir. 17 ölkədə fəaliyyət göstərən şirkət Azərbaycanın dənizçilik şirkətləri ilə əməkdaşlığa da xüsusi önəm verməkdədir. Şir-



kətin baş direktoru Aleks Klark bildirib ki, birgə müəssisə strateji əhəmiyyətli bir bazarda mövqelərin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. "Bakı Xəzər bölgəsində dəniz və dəniz fəaliyyətləri üçün əsas mərkəzdir və "Green Line Shipping" uzunmüddətli tərəfdaş olaraq dəyər verdiyimiz müəssisədir və bu partnyorluq yerli bilikləri, çatdırılma fokusunu və ortaq ambisiyanı bir araya gətirəcək. Birgə müəssisə həmçinin hər iki şirkətin səmərəliliyin artırılmasına və daha dayanıqlı iş üsullarının dəstəklənməsinə yönəlmiş diqqətini əks etdirir. Birlikdə beynəlxalq standartları praktik yerli icra ilə birləşdirən və müştərilərə təhlükəsiz, səmərəli və etibarlı əməliyyatlar həyata keçirməyə kömək edən bir platforma yaradacağıq".

### Xəzərdə yeni logistika zənciri

İngilis şirkətinin partnyoru olan "Green Line Shipping" dənizçilik xidmətləri və dənizdə mühəndislik sahəsində ixtisaslaşıb və bu yaxın fəaliyyət Xəzərdə logistikanın əlaqələndirilməsi və regional müştərilərlə iş imkanlarının təmin edilməsinə mühüm töhfə vermək niyyətindədir. Şirkətin baş direktoru Renat Rzayev bildirib ki, "Interocean Group" ilə partnyorluq Azərbaycanda və daha geniş Xəzər regionunda mövcud olan dənizçilik imkanlarını gücləndirməyə yönəlmiş strategiyanın bir hissəsidir. Xəzərdə beynəlxalq standartların və dəniz təcrübəsinin tətbiq olunduğu yeni logistika zənciri qurulur. Bundan ölkə iqtisadiyyatı töhfə görəcək, eyni zamanda, dəniz nəqliyyatında uzunmüddətli daşınma platforması qurulacaq.

Xəzər dənizi Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyi üçün böyük strateji və logistik imkanlara malikdir. Bakı və Ələt Limanlarının modernləşdirilməsi və regionda əsas logistika qovşağına çevrilməsi müasir geoiqtisadi rəqabətin artdığı dövrdə beynəlxalq daşıyıcı şirkətlərin marağını artırır.

Bakı-Tbilisi-Qars dəmir yolunun Xəzər logistikasına qoşulması, Çindən və Mərkəzi Asiyadan gələn yüklərin bu tranzit xəttinə inteqrasiya edilməsi Xəzər dənizini Avropa və Asiya ilə birləşdirən əsas halqaya çevirməkdədir. Ələlxüsus da, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə Çindən artan yüklərin Xəzər dənizi vasitəsilə Qərbə daşınması yük dövriyyəsini sürətlə artırır və dəniz nəqliyyatı sistemləri və limanlar arasında koordinasiya güclənir.

### "C5-dən "C6"-a keçid dəniz donanmasının strateji rolunu artırır

Son dövrlərdə, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin güclənməsi və Məşvərət görüşündə tamhüquqlu üzv olaraq yer alması, "C5-dən "C6"-a keçidi formalaşdırması regional tranzitlərin birləşməsini də təmin edir. Azərbaycan Mərkəzi Asiyadan gələn yüklərin dünya bazarına təhlükəsiz, sürətli və rəqabətli şəkildə çatdırmaq üçün genişşaxəli infrastrukturlar qurur ki, burada Xəzərin logistika landşaftı mühüm strateji məzmun kəsb edir. Qazaxıstanın tranzit potensialını artırması, Özbəkistanın Qafqaz limanlarına çıxış axtarması, Çinlə Mərkəzi Asiya arasında əlaqələrin genişlənməsi və Avropanın alternativ enerji və logistika marşrutlarına marağının artması Azərbaycanın qarşısında yeni logistik imkanlar açır. Bu amil dənizdə donanma infrastrukturnu gücləndirməyi, yeni daşınma şirkətləri ilə əlaqələrin artırılmasını labüd edir. Belə bir şəraitdə, xarici donanmaların nüfuzlu üzvlərinin, o cümlədən Böyük Britaniyanın "Interocean Group" kimi tanınmış daşıyıcısının Xəzər regionunda uzunmüddətli fəaliyyətə başlaması logistikanın rəqabətliliyini və dənizdə əməliyyatların səmərəliliyini də artırmış olacaq.

Beləliklə, "Interocean Group" və "Green Line Shipping"in birgə əməkdaşlığı qarşılıqlı strateji əhəmiyyət daşıyan logistikanı təmin edəcək, müştərilərin maraqlarına cavab verən daşınma xidmətlərini formalaşdıracaq. Əməkdaşlıq Xəzərdə və digər dəniz və okeanlarda dənizçilik, dənizdə enerji, dəniz təminatı və inteqrasiya olunmuş aktiv həlləri sahələrində yeni imkanları araşdırmaq və həyata keçirmək üçün daha geniş imkanlar yaradacaq.

*E.CƏFƏRLİ*

# Qızıl yenidən bahalaşır

## Əlvan metalın unsiyasının qiyməti 4700 dollara çatıb

Uzun müddətdir ki, dünya birjalarında kəskin qiymət enişləri nümayiş etdirən qızılın qiymətində yenidən bahalaşma müşayiət olunmaqdadır. Əlvan metalın bir troya unsiyasının qiyməti beynəlxalq "Comex" birjasında 4700 dollar həddini ötüb. Bu, son 4 ayda (sarı metal 2026-cı ilin may ayında baha satılıb) ən yaxşı bazar qiyməti indeksi deməkdir.

Qlobal analitiklər qiymətlərin sürətlə artmasına ticarət müharibələri, tənəzzül gözləntiləri, ABŞ-ın yumşaq pul siyasəti və mərkəzi banklardan tələbatın artmasının səbəb olduğunu qeyd edirlər. Son bir ayda ABŞ-ın maliyyə siyasəti və zəifləyən dollarla bağlı narahatlıqlar, istiqraz bazarına müdaxilənin artması, eləcə də son bir həftədə uzunmüddətli ABŞ istiqrazlarının gəlirliliyinin yüksəlməsi, ABŞ-İran qarşıdurmasının davam etməsi qızıl alətinə investisiyalara da müsbət təsir edib. Eləcə də qiymət artımının əsas amillərindən biri kimi ABŞ Federal Ehtiyat Sisteminin son bir ayda faiz dərəcəsini aşağı salmaq siyasəti də təsiredici rol oynayır. FED-in yumşaq pul siyasəti valyuta və borc alətlərinə investisiyaları daha az cəlbedici edir və qızıl yığımlarına transformasiyanı artırır.

Avqustun son ongünlüyü isə qızılın ən güclü aktivlərindən biri kimi yadda qalması ilə səciyyələnib. Bu müddətdə dolların zəifləməsi, istiqraz bazarında yüksək gəlirlilik və fiskal risklərlə bağlı narahatlıqlar, həmçinin Yaxın Şərqdə geosiyasi gərginlik qiymətli metala tələbi artırıb. Bu, baş verən fraqmentasiyalar fonunda sarı metalın bahalaşması hiss olunur.

### Qlobal səhmdarlar pullarını qızıla çevirir

Mərkəzi bankların artan tələbi də qızıl bazarına xüsusi təsir göstərib."Goldman Sachs" analitiklərinin fikrincə, mərkəzi banklar, xüsusən də inkişaf etməkdə olan ölkələrin bu qurumları qızılla ehtiyatlarının struktur şaxələndirilməsini davam etdirir. Ümumdünya Qızıl Şurasının məlumatına görə, 2026-cı ildə dünya mərkəzi banklarının xalis qızıl alışı əvvəlki illə müqayisədə 45 faizdən çox artaraq 900 tona çatıb. Böyük iqtisadiyyata malik ölkələr - Çin, Səudiyyə Ərəbistanı, Braziliya, Türkiyə, Almaniya və Hindistan da əvvəlki ehtiyatların xarici valyutada saxlanması təcrübəsindən imtina edərək qızıl ehtiyatlarını fəal şəkildə artırırlar. Nəticədə bu amillər qızıla olan tələbi artırır və qiymətləri yüksəldir.



Mövcud situasiyalar investorlar arasında digər pul və investisiya alətlərinin qızıl yığımlarına transformasiyasına yeni stimullar verməkdədir. Ehtimal olunur ki, qlobal səhmdarlar dünya səhm bazarındakı dəyişkənliklərə cavab olaraq, öz yığımlarını daha təhlükəsiz investisiya seçimlərinə, daha doğrusu qızıla yönəldəcək. Ümumilikdə, qiymətli metalın artım tendensiyası davam edə bilər.

### "Citigroup" qızılın qiyməti ilə bağlı proqnozunu artırıb

ABŞ-ın qızıl birjaları assosiyaları üzrə məşhur UBS analitikləri, qızılın qiymətinin 2026-cı ilin sonunda və növbəti ildə yenidən artmaqda davam edəcəyi proqnozlaşdırır. Bu amil investorlar arasında da yığımların transformasiyasına yeni stimullar verməkdədir. Ehtimal olunur ki, qlobal səhmdarlar dünya səhm bazarındakı dəyişkənliklərə cavab olaraq, öz yığımlarını daha təhlükəsiz investisiya seçimlərinə, daha doğrusu qızıla yönəldəcək. Analitiklərin fikrincə, külçə qızıl üzrə tələbin artması ilə qiymətlərin 2026-cı ilin sonunda 5000 dolları ötəcəyi gözlənilir.

ABŞ-ın nəhəng banklarından olan "Citigroup" da açıqladığı yeni hesabatında qızılın qiyməti ilə bağlı proqnozunu artırıb. "Citigroup" Hörmüz böhranının həll olunacağı, ABŞ-da faiz dərəcələrinin düşəcəyi və FED-in daha az sərt mövqe tutacağı gözləntilərini əsas gətirərək, qarşıdakı 6 aylıq dövr üçün qızılın qiyməti ilə bağlı qiymət hədəfini bir troya üçün 5000 dollar səviyyəsində müəyyən edib.

"Bloomberg Intelligence" isə qızılın qiymətinin 2027-ci ilin əvvəlində və ya ortalarında 5000 dollara çatacağını proqnozlaşdırır.

### "Fitch": Qızıl Azərbaycanın xarici maliyyə mövqeyini gücləndirir

Azərbaycan son illərdə qızıl alışını həm artırıb, həm də bu monetar alətin ixracını yüksəldib. Belə ki, 2026-cı ilin yanvar-iyul aylarında ölkəmizin qızıl ixracının dəyəri 3 milyard 707,8 milyon dollar olub. Bu, 24,5 ton qızıl ixracı deməkdir.

Yeri gəlmişkən, "Fitch Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanın qızıl ehtiyatlarının xarici maliyyə mövqeyinə təsirini qiymətləndirib. Agentlik qızılın bahalaşmasının Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) aktivlərinin həcminə müsbət təsir göstərdiyini bildirib. Məlumatına görə, 2026-cı ilin birinci yarısında ARDNF-nin investisiya portfeli 73 milyard dollar təşkil edib ki, bu da "Fitch"in Azərbaycan üzrə 2026-cı il üçün proqnozlaşdırdığı ÜDM-in 93 faizinə bərabərdir. Qızıl Fondun investisiya portfelinin ən böyük komponentidir və ümumi portfelin hazırda 32 faizini təşkil edir. 2023-cü ildən 2026-cı ilin birinci yarısınadək qızıl ehtiyatları Neft Fondunun aktivlərinin təxminən 19 milyard dollar artmasına birbaşa töhfə verib. Bu artımın 26 faizi qızıl ehtiyatlarının fiziki həcminin artması ilə əlaqədar olub.

"Fitch" analitikləri qeyd edir ki, Azərbaycanın "BBB-" suveren reytinqi ARDNF-nin iri həcmli aktivləri hesabına xarici maliyyə göstəriciləri üzrə əlavə üstünlük əldə edir. Fondun aktivləri ölkənin olduqca güclü xarici valyuta likvidliyini və xalis xarici kreditor mövqeyini dəstəkləyir. Yüksək qızıl qiymətləri Azərbaycanın reytinqini dəstəkləyir, xarixi mövqeyini möhkəmləndirir.

*E.CƏFƏRLİ*

# Dünyanın ən böyük qlobal enerji böhranı

Cari ilin fevralında başlayan ABŞ-İsrail-İran müharibəsinin və bu müharibənin tərkib hissəsi olaraq Hörmüz boğazında yaranan qeyri-müəyyənliyin yan təsirləri kifayət qədər böyükdür. Artan təsirlər bütün dünyanı əhatə edir və xüsusilə də enerji təchizatında özünü daha qabarıq şəkildə göstərir. Bu da onunla bağlıdır ki, Hörmüzdə daşımaların təhdid altına düşməsi səbəbindən enerji məhsullarının təchizat zənciri pozulub. Körfəzin neft-qaz resursları ilə zəngin olan ölkələri özlərinin ehtiyatlarını dünya bazarlarına çıxarmaqda ciddi çətinliklərlə üzləşirlər ki, bunun da nəticəsində enerji bazarında kəskin qiymət artımları yaranır, eyni zamanda Avropada, Asiyada istehlak tələbləri qarşılanmır.

Xatırladaq ki, müharibədən əvvəl dünyanın enerji məhsullarına olan tələbatının beşdəbiri məhz Hörmüz vasitəsilə daşımalar hesabına təmin olunurdu. Alternativ marşrutların ötürücülük imkanlkarı isə Hörmüzlə müqayisədə çox məhduddur. Digər tərəfdən, bu, əlavə vaxt itkisinə səbəb olur, daşıma və sığorta xərclərini artırır.

Müharibənin yeni fazaya keçməsi Hörmüzdə qeyri-müəyyənliyin yaxın perspktivdə aradan qalxacağına inamı azaldır. Bu isə o anlama gəlir ki, qlobal enerji bazarında böhran daha da dərinləşəcək. Bununla bağlı artıq beynəlxalq təşkilatlar səviyyəsində də həyəcan təbili çalınır.

## Körfəzdə real vəziyyət - Hörmüzdə ticarət gəmilərinin hərəkəti 95 faiz azalıb

Belçikada yerləşən “Kpler” şirkətinin gəmi izləmə məlumatında bildirilir ki, hazırda Körfəzdə milyonlarla barel neft, necə deyərlər, daşınma saatını gözləyir və 22 tanker boş qalıb. Bazar ertəsi günü boğazdan cəmi iki tanker keçib. Bu da münaqişənin başlanğıcından bəri ən aşağı gündəlik keçid sayıdır. O cümlədən ABŞ-ın İrana qarşı dəniz blokadası səbəbindən çinli alıcıların asanlıqla əldə edə biləcəyi İran neftinin tədarükü sürətlə azalıb. Təxminən 40 milyon barel İran xam nefti Çinə göndərilən neftin gəmidən-gəmiyə daşınması üçün teztez istifadə edilən Sinqapur yaxınlığında tankerlərdə gözləyir.

Analitiklər bu vəziyyətin təkcə Tehrana deyil, həm də həmin xam neftin əsas müştəriləri olan Çinin özəl neft emalı zavodlarına zərbə olduğunu söyləyirlər. Alıcılar sentyabr ayı fyuçersləri üzrə İrandan yeni tədarük həyata keçirə bilməyəcək. Tədarükün demək olar ki, olmaması İran tərəfinin indi daha yüksək qiymətlər tələb edə biləcəyi ehtimalını gücləndirir. Bu vəziyyət artıq qiymətlərdə öz əksini tapır. İranın yüngül dərəcəli nefti üçün təklifləri “Brent” markalı xam neftin qiymətindən 3,5 dollar çox artıb.

Bundan başqa, ABŞ Tehrana qarşı iqtisadi tədbirləri daha da artırmaqda qərarlıdır. Birləşmiş Ştatların maliyyə naziri Skott Bessent İranın dünya tarixində ən böyük əlaqələndirilmiş iqtisadi təcridlə üzləşəcəyini bildirib. Bu, isə yeni ssenarilərə yol açır.

“Vortexa” gəmi izləmə şirkəti isə hazırda Hörmüz boğazında izlənilən tanker trafiki barədə məlumat yayıb. Məlumata görə, ABŞ-İsrail-İran müharibəsi başlamamışdan əvvəl Hörmüzdən gündəlik təxminən 130 ticarət gəmisi keçirdi. Hazırda isə ticarət gəmilərinin hərəkəti müharibədən əvvəlki səviyyələrlə müqayisədə 95 faizdən çox azalıb.

## BEA həyəcan təbili çalır - “təsəlliverici yastıqlar” tükənir

Dünyada enerji böhranı elə bir səviyyəyə çatıb ki, artıq Beynəlxalq Enerji Agentliyi (BEA) yaranmış çətin durumla əlaqədar həyəcan təbili çalır. Agentliyin icraçı direktoru Fatih Birol deyib ki, qlobal miqyasda dizel və reaktiv yanacaq tədarükü kritik səviyyədədir.

Dünyanın üzləşdiyi enerji böhranının miqyasına diqqət çəkən və enerji sektorundakı son prosesləri qiymətləndirən Fatih Birol bildirib ki, fevral ayının sonunda Yaxın Şərqdə başlayan müharibədən sonra Hörmüz boğazında baş verən fasilələr səbəbindən itirilən neft və təbii qazın həcmi 1973-cü və 1979-cu illərdəki neft böhranlarının və 2022-ci ildəki Rusiya-Ukrayna qaz böhranındakı ümumi həcmdən çoxdur. Bu vəziyyəti dünyanın indiyə qədər üzləşdiyi ən böyük enerji böhranı kimi xarakterizə edən Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Hörmüz boğazı üçün “vaza qırılıb” ifadəsini işlədib.

O, qırılmış vazanın yenidən yapışdırıla bilməyəcəyini vurğulayaraq Hörmüz boğazına olan inamın tamamilə itdiyini bildirib: “Müharibədən əvvəl gündə 25 milyon barel olan tranzit həcmi indi təxminən 15 milyon barelə düşüb. Bazarları inandırmaq və risk götürərək gəmiləri boğaza qaytarmaq artıq çox çətindir”.

Neft qiymətlərinin hazırda 90 dollar ətrafında dəyişməsi və hələ də 100 dolları keçməməsinin səbəbini açıqlayan Fatih Birol qeyd edib: “Bu, müharibədən əvvəlki böyük həcmdə təchizat çoxluğu və Beynəlxalq Enerji Agentliyi tərəfindən təmin edilən 400 milyon barel strateji ehtiyatla əlaqədardır. Lakin “təsəlliverici yastıqlar” tükənir. Əsas təhlükə xam neftdə deyil, emal olunmuş məhsullardadır. Müharibə zamanı Rusiyadakı neft emalı zavodlarına dəyən ciddi ziyan, Çin və Hindistan kimi böyük ixracatçıların daxili bazarlarına üstünlük verməsi və ixracı azaltması fonunda dizel və reaktiv yanacaq tədarükü kritik səviyyədədir. Nigeriyadakı “Dangote” neft emalı zavodundan Avropaya göndərilən həcmlər azalıb. Problem həll olunmazsa, uçuşların ləğvi, dizel çatışmazlığı və kənd təsərrüfatı əkin mövsümündə gübrə böhranı baş verə bilər”.

O, qloballaşma dövründə “ən ucuz məhsulu tapmaq” fəlsəfəsinin başa çatdığını və yeni dövrün şüarının “etibarlı tərəfdaş” olduğunu bildirib. “Ölkələr artıq daha çox vəsait ödəmək olsa belə, enerjidən silah kimi istifadə etməyəcək etibarlı tərəfdaşlar axtarır. Rusiyadan Avropaya təbii qaz və Hörmüz boğazından dünyaya enerji axınının kəsilməsi qlobal şoka səbəb olub”, - deyə BEA-nin rəsmisi vurğulayıb.

Fatih Birol qarşıdakı dövrdə üç geosiyasi prosesi belə xarakterizə edib - asanlıqla həll olunmayacaq Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə və İranda gərginlik, ABŞ və Çin arasında süni intellekt və texnologiya sahəsində rəqabət. O, həmçinin Tayvan böhranının da bu siyahıya əlavə olunma riskini qeyd edib. BEA-nin icraçı direktoru gələcəyin əsas ssenarisinin hərbi münaqişə formasında deyil, kritik minerallar (litium, kobalt, mis) və süni intellekt üzərində aparılan iqtisadi və ticarət müharibələri olacağını diqqətə çatdırırb.



## Avropanın qaz təchizatı risk altında - anbarların doluluq nisbəti ötənilki səviyyədən 12 faiz aşağıdır

Yaxın Şərqdəki münaqişə fonunda Hörmüz boğazının bağlanması ayda 7 milyon tondan çox mayeləşdirilmiş təbii qazın (LNG) tədarükünün dayanmasına səbəb olub və bu regional qaz bazarlarında ciddi təchizat çatışmazlığı yaradıb.

Hazırda Avropada təbii qaz anbarlarının doluluq nisbəti 61,6 faizdir. Ötən ilin eyni dövründə isə bu göstərici 74 faiz olub. Bu barədə “Gas Infrastructure Europe” (GIE) məlumat yayıb.

“Qoca qitədə” təbii qaz qiymətləri aşağı ehtiyatlar və təchizatın pozulması səbəbindən 5 faizədək artıb. Hazırda Niderlandın TTF habında təbii qazın qiyməti meqavat-saat üçün 68,36 avroya çatıb.

Analitiklərin fikrincə, bu artıma ehtiyat həcminin ötənilki səviyyələrdən aşağı qalması və təchizat kəsintiləri riski təsir edib. Qeyd olunur ki, anbarların doluluq nisbəti aşağı səviyyədə qalarsa, xüsusən də bu, soyuq qış aylarında baş verərsə, noyabr-mart ayları arasında təbii qaz qiymətləri kəskin arta bilər.

Avropa İttifaqı dekabrın 1-dək anbarların doluluq nisbətini 80 faizə çatdırmağı hədəfləsə də, təchizatdakı fasilələrin bu hədəfə mənfi təsir göstərəcəyi gözlənilir.

ABŞ-İran müharibəsi Yaxın Şərq ölkələrindən Avropaya qaz nəqlinə mənfi təsir göstərir.

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol bildirib ki, Yaxın Şərqdə təchizatdakı fasilələr və Rusiyadan mayeləşdirilmiş təbii qaz tədarükünün dayandırılması səbəbindən Avropa bu qış fəslində ciddi risklərlə üzləşə bilər.

“Wood Mackenzie” tədqiqat və konsaltinq şirkətinin məlumatına görə, Avropanın tarixən aşağı təbii qaz saxlama səviyyələri 2026/2027-ci illərin qış fəslində təchizat təhlükəsizliyini riskə atır.

Ən çətin vıziyyətdə olan ölkələrdən biri Almaniyadır. Son məlumatlara görə, Almaniyanın qaz ehtiyatları avqust ayında milli tutumun yalnız 47 faizini təşkil edib ki, bu da statistika aparılmağa başlandığından bəri ən aşağı səviyyədir. Bu, xüsusilə həyəcanvericidir, çünki Almaniyanın qaz ehtiyatları bütün Avropa İttifaqı (Aİ) üçün vacibdir və blokun ümumi saxlama tutumunun 20 faizindən çoxunu təşkil edir.

“Politico” nəşri bildirib ki, Almaniya Aİ-də ən həssas həlqədir, çünki onun böyük ölçüsü qonşu ölkələrdə qaz çatışmazlığına səbəb ola bilər və Berlin anbarlarını doldura bilməsə, bu, bütünlükdə blokda qiymətlərin artmasını qaçılmaz hala gətirər.

Almaniya Energetika Nazirliyi tarixən aşağı ehtiyatları etiraf etsə də, müdaxilə etməkdən və dövlət şirkətlərini mövcud qiymətlərlə qaz almağa məcbur etməkdən boyun qaçırıb. Onu da xatırladaq ki, bir neçə həftə əvvəl Avropanın ən böyük təbii qaz tədarükçüsü olan “Equinor” şirkətinin baş direktoru Avropanın qışın əvvəlinə qədər anbarlarını 80 faizə qədər doldura bilməyəcəyini deyib.

## Asiyada kömür yanacağına qayıdış

Hörmüzdən keçən daşımalar böyük ölçüdə Asiya bazarlarına yönəldilirdi. İndi təchizat zəncirinin pozulması Asiya ölkələrini də alternativlər axtarmaq məcburiyyətində qoyub. O cümlədən qlobal enerji bazarlarında baş verən gərginlik Asiya ölkələrində kömürə olan tələbi əhəmiyyətli dərəcədə artırıb. Mütəxəssislərin fikrincə, neft tədarükündə yaranan çətinliklər alternativ enerji mənbələrinə, xüsusilə kömürə marağı gücləndirir.

Dəniz daşımaları sektorunda fəaliyyət göstərən “Seanergy Maritime Holdings Corp” şirkətinin baş icraçı direktoru Stamatis Tsantanis bildirib ki, Çin son aylarda kömür ehtiyatlarını böyük həcmdə artırıb. Onun sözlərinə görə, kömür hazırda həm enerji təhlükəsizliyi, həm də strateji resurs kimi daha önəmli mövqeyə çıxır. O cümlədən Çin 2027-ci ilə qədər elektrik stansiyalarının stabil rejimdə fəaliyyətini təmin etmək üçün xüsusi ehtiyat kömür gücü yaratmağı planlaşdırır və 2030-cu ilə qədər 300 milyon ton ehtiyat toplamağı hədəfləyir. Bu tədbir təbii fəlakətlər, bazardakı kəskin dəyişikliklər və qiymət dalğalanmalarının yumşaldılması məqsədi daşıyır. Bütövlükdə, ölkə hər il 4 milyard tondan çox kömür yandırır. Çin kömür tədarükünü əsas etibarı ilə Rusiyadan həyata keçirir.

Beynəlxalq proqnozların qlobal kömür tələbatının azalacağını bildirməsinə baxmayaraq, Hindistan da kömür hasilatı gücünü və idxalını artırmağa davam edir. Bu ölkədə koklaşa bilən daş kömürün idxalının 2030-cu ilə qədər artacağı gözlənilir. Avstraliya Hindistanın kömür idxalında 30.43 faiz payla birinci sıradadır (təxminən 1.17 milyard dollar dəyərində rüblük tədarük). Avstraliya Hindistana əsasən polad sənayesi üçün koklaşan kömür tədarük edir. Ölkə qlobal enerji bazarındakı riskləri nəzərə almaqla həmçinin Rusiyadan kömür idxalını, o cümlədən energetik kömür idxalını yüksək templə artırır. Cari İlin yeddi ayında Rusiyadan Hindistana energetik kömür ixracı 48 faiz artaraq 7,2 milyon tona çatıb.

*Mübariz ABDULLAYEV*

## Fransa maliyyə böhranı riski ilə üz-üzədir: bu təhlükə hər gün artır



Respublikaçılar partiyasından (LR) deputat və büdcə üzrə baş məruzəçi Filip Jüvən Fransanın dövlət maliyyəsinin vəziyyəti ilə bağlı xəbərdarlıq edib. Onun fikrincə, ölkə borclanma xərclərini azaltmaq üçün tədbirlər görməsə, kəskin və nəzarətsiz maliyyə böhranı riski getdikcə artacaq.

AZƏRTAC xəbər verir ki, Fransanın dövlət maliyyəsinin vəziyyəti ilə bağlı narahatlıqlar artır. Filip Jüvən “France Televisions” kanalında yayımlanan “Telematin” proqramında ölkənin maliyyə vəziyyəti barədə xəbərdarlıq edib.

Onun sözlərinə görə, maliyyə böhranı riski hər gün artır və tədbirlər görülmədiyi təqdirdə bu təhlükə daha da böyüyəcək. Deputat əsas xəbərdarlıq siqnalı kimi Fransanın maliyyə bazarlarından borc alarkən ödədiyi faizlərin yüksəlməsini göstərib. Bu artım xüsusilə avqust ayında nəzərəçarpacaq dərəcədə sürətlənib.

Jüvənin fikrincə, investorlar hələ də Fransaya etimad göstərirlər, lakin ölkənin müxtəlif borclanma əməliyyatları ilə bağlı riskləri nəzərə alaraq dövlətə daha baha şərtlərlə kredit verirlər.

Deputat mövcud vəziyyətin əsas səbəbini dövlət xərcləri ilə gəlirlər arasındakı ciddi balanssızlıqda görür. Onun hesablamasına görə, Fransa dövlət büdcəsi təxminən 330-340 milyard avro vergi gəliri əldə edir və təxminən eyni məbləğdə borclanır.

Bununla belə, Jüvən hesab edir ki, Fransa hələ iflas həddində deyil, çünki ölkə borc almaqda davam edir. Lakin əsas risk kreditorların Fransaya olan etimadını qəfil itirməsidir.

Deputat bildirir ki, Fransanın maliyyə vəziyyəti beynəlxalq kreditorlar tərəfindən diqqətlə izlənilir və ölkə Beynəlxalq Valyuta Fondunun (BVF) də nəzarəti altındadır.

Jüvən bir neçə həftə əvvəl BVF nümayəndələri ilə görüşdüyünü bildirərək, kreditorların Fransaya etimadını hələ saxladığını, lakin bunun getdikcə çətinləşdiyini vurğulayıb.

Onun fikrincə, bu tendensiya davam edərsə, Fransa kəskin və nəzarətsiz maliyyə böhranı ilə üzləşə bilər.

## Türkiyədə BMT-nin iqlim diplomatiyası təcrübədən keçiriləcək

Türkiyənin COP31-ə ev sahibliyi çərçivəsində avqustun 27-dən sentyabrın 1-dək İstanbulun Demokratiya və Azadlıqlar adasında “NextGenCOP30.5: İqlim Zirvəsi və Gənclər Diplomatiyası Simulyasiyası” proqramı keçiriləcək.

AZƏRTAC xəbər verir ki, Türkiyənin Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi, Cemre Fondu və İstanbul Texniki Universitetinin əməkdaşlığı ilə təşkil olunan tədbirdə 200 gənc iştirak edəcək. Proqramın açılışını avqustun 28-də COP31 Sədri, Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum edəcək.

Oxford və Kembric kimi nüfuzlu universitetlərin tələbələrinin də iştirak edəcəyi proqram çərçivəsində gənclər iqlim maliyyələşməsi və buna uyğunlaşma kimi məsələlər üzrə danışıqlar aparacaqlar. Onlar BMT-nin iqlim diplomatiyası prosesini praktiki şəkildə təcrübədən keçirərək, yekunda “Antalya Sazişi” adlı sənəd hazırlayacaq və qəbul edəcəklər.

Tədbir çərçivəsində “Mavi zona” və “Yaşıl zona” fəaliyyətləri təşkil olunacaq. İqlimyönümlü 10 startap layihələrini nümayiş etdirəcək.

Proqramda Türkiyənin “Sıfır Tullantı” yanaşmasına uyğun olaraq birdəfəlik plastikdən istifadəyə qadağa tətbiq ediləcək, rəqəmsal sənədlərdən istifadə olunacaq və iştirakçıların yaxa kartları toxumlu kağızdan hazırlanacaq.

Avqustun 31-də bağlanış mərasimindən sonra qlobal istiləşmənin 1,5 dərəcə həddinə diqqət çəkmək məqsədilə adada “1,5 dərəcə isti hədəfini yaxın tut” şüarı ilə məşəli yürüş keçiriləcək.

Qeyd edək ki, Türkiyənin ev sahibliyi edəcəyi COP31 noyabrın 9-dan 20-dək Antalyada keçiriləcək. “NextGenCOP30.5” proqramının əsas məqsədi gənclərin iqlim diplomatiyasında yalnız iştirakçı deyil, həm də fikir irəli sürən, danışıqlar aparan, konsensus axtaran və həll yolları təklif edən fəal tərəf kimi iştirakını gücləndirməkdir.

## “Axios”: ABŞ İrana yeni genişmiqyaslı zərbələr endirməyi planlaşdırmır

ABŞ yaxın perspektivdə İrana qarşı yeni genişmiqyaslı zərbələr endirməyi planlaşdırmır və Tehran üzərində təzyiqin artırılması üçün sanksiyalar və dəniz blokadası da daxil olmaqla digər vasitələrə diqqət yetirmək niyyətindədir.



“Report”un məlumatına görə, bu barədə “Axios” mənbələrə istinadən xəbər verib.

Portalın məlumatına əsasən, ABŞ dövlət katibi Marko Rubio bir neçə ölkənin xarici işlər nazirlərinə Vaşinqtonun genişmiqyaslı hərbi əməliyyatları bərpa etməyi planlaşdırmadığını bildirib. Bununla belə, İranın ilk olaraq hücum edəcəyi təqdirdə ABŞ-ın zərbələr endirməsi ehtimalını istisna etməyib.

ABŞ Tehrana iqtisadi təzyiqi sanksiyalar və dəniz blokadası vasitəsilə artırmağı, həmçinin Hörmüz boğazından mümkün qədər çox həcmdə neftin daşınmasını təmin etməyi planlaşdırır.

“Axios”-un mənbələrindən birinin sözlərinə görə, ABŞ administrasiyası bu yanaşmanı ən azı noyabrın 3-də keçiriləcək Konqresə aralıq seçkilərinə qədər davam etdirmək niyyətindədir.

ABŞ administrasiyasının nümayəndəsi bildirib ki, hazırda Vaşinqton Tehranla danışıqlar aparmır. Bununla belə, ABŞ göstərdiyi təzyiqin İranı danışıqlar masasına qayıtmağa sövq edə biləcəyini düşünür.

# Şah İsmayıl Xətai: imtina etmək, yoxsa tarixin gizlin və gerçəklərinə baxmaq



*Azər TURAN*

əvvəli ötən saylarımızda

**Xalq yazıçısı Anarın 1985-ci ildə yazdığı "Şairin zəfəri" məqaləsindən tezislər**

Anarın yazısını səbəbsiz xatırlatmıram. "Şairin zəfəri" ədəbiyyat tariximizin ən maraqlı esselərindən biridir. Orda belə bir abzas var: "Şah İsmayıl özü salnaməçilərin göstərdikləri kimi, yalnız Azərbaycan taxtgahından söhbət açmır, xüsusi hörmət əlaməti olaraq əmirlərindən birini "kilidi-Azərbaycan" adlandırır. Səfəvilərin dostları da, düşmənləri də onların ölkəsini məhz Azərbaycan kimi qavrayırdılar. Sultan Yaqub səfəvilərin məhz Azərbaycanı onların əlindən alacaqlarından qorxurdu. Şeybani xan İsmayıla yazdığı məktubda şahı hədələyirdi ki, qoşunlarını "İraqın və Azərbaycanın sərhədlərinə çəkəcək..." Ta qədimlərdən bəri və Səfəvilər dövründə də Azərbaycan ərazisində dili dilimiz, qanı qanımız, kökü kökümüz olan bir xalq - bizim xalqımız yaşayır. Bu xalqın içindən çıxmış səfəvilər uzun illər boyu apardıqları mübarizə nəticəsində müstəqil dövlət yaradırlar... Bu dövlətin əsas siyasi və hərbi qüvvəsini türkdilli Azərbaycan tayfaları - Varsağ, Zülqədərli, Bayat, Rumlu, Şamlu, Ustaclu, Qacar, Qaramanlı, Əfşar, Təkəli və s. qəbilələr təşkil edirdi. "Saray və ordunun dili Azərbaycan dili idi" (V.Bartold). Dövlətin paytaxtı Azərbaycan şəhəri Təbriz idi. Fars dili əsrlər boyu Şərqdə rəsmi dəftərxana dili olsa da, Səfəvilər dövründə Azərbaycan dilində siyasi yazışmalar, fərmanlar, rəsmi sənədlər meydana çıxır. Qızılbaşların döyüş harayları, çağırışları da doğma dillərindədir: "Qurban olduğum, sadağa olduğum, pirim, mürşüdüm". Bu dövrdə işlədilən dövlət, ordu istilahları arasında belə sözlər diqqəti çəkir: qorucu (mühafizə dəstəsinin əsgəri), gəzən (patrul), saxlob (qazarma), ayaqçı (qasid, kuryer), atminən, sancaq (bayraq), çalıcıbaşı, topçubaşı, minbaşı, yüzbaşı, onbaşı və s." Anar müəllim həmin yazısında Səfəvilərin qurduğu dövləti İran adı ilə təqdim edən mənbələrə deyil, onu Azərbaycan adı ilə çağıran mənbələrə istinad edirdi.

**Bəktaşa şeir yazan Şah İsmayıl Xətai və qulağına Bəktaşi sırğası taxan Sultan Səlim**

"Xətai biçarə quldur şahına, / Hünkar Hacı Bəktaş nəzərgahına". Şah İsmayıl özünü Bəktaşi Vəlinin silsiləsində görürdü. Sultan Səlim isə qulağının birinə "Bəktaşi mənkuşu" adlandırılan sırğa-küpə taxırdı. Əhməd Yəsəvi üsulunda şeirlər yazan Xətai kimi, onun rəqibi, əslən Batı xanın nəslindən olan və özünü Şah Bəxt adlandıran Bəktaşi Şeybani xan (Şibək xan) da incə zövqlü şair idi, şeirlərində Yəsəvinin ruhuna və şəhərinə ehtiramını izhar edirdi.

**Türk savaş gələnəyi, yaxud Xətai Şeybaninin kəlləsindən düzəldilmiş badədə şərab içibmi?**

Bir də Xətainin Şeybaninin kəlləsindən düzəldilmiş badədə şərab içdiyini yazırlar. Bunu təxminən, belə ifadə edirlər: şərab içib, özü də insan kəlləsindən düzəldilmiş qədəhdə. Məsələ burasındadır ki, məğlub hökmdarın kəlləsində qalib hökmdarın şərab içməsi türk savaş gələnəyinin əlamətidir. Şeybani Şah İsmayılı təhqir etmişdi. Kirmana hücum etmişdi, Xətainin səbr kasasını daşdırmışdı. Xətai də Şibək xanın (Şeybaninin) hərəkətlərinə seyrçi qalmamış, təhdidlərini və təhqirini cavabsız buraxmamış, Amu Dəryanın sahillərinə qədər qoşun çəkib Şeybaninin kəlləsini üzmüşdü. O zaman Xətainin 23 yaşı vardı... Türk kültür tarixi ilə bağlı araşdırmasında Bahəddin Ögel yazır: "Orta Asiya türk dövlətlərində, düşmənlərin kafatasından yapılan qədəhlərlə içki içmə adətinin nə qədər yayğın olduğu bilinməkdə idi. Bu əski türk ənənəsinin Bulqarlarda da davam etməsini görüyoruz. Kurumuş Xan, imperator Nikeforun başını kəsdiriyor və kafatasından bir içki qədəhi yapdırıyor və islav rəislərini bu kafataslarından içki içməyə zorlayırdı. Kumanlarda da eyni adət görülməkdədir".

Kuşanların əcdadları olan Yüeçilər məğlub edəndən sonra Metenin Yüeçi yabqusunun kəlləsindən qədəh yapdırdığı da tarixdə bilinən hadisələrdəndir. Xətai, doğrudur, Şeybaninin başını üzmüşdü, kafatasını qızıla tutdurub piyalə düzəltdirmişdi. Amma onda şərab içməmişdi. Bu "bahalı" və müdhiş kəlləni II Bəyazidə göndərmişdi.

**Məsələ Xətainin hüdudlarını çox aşır**

Xətai ilə bağlı müzakirələr əslində ideoloji istiqamət almaqdadır. Razılaşaq ki, məsələ Xətainin hüdudlarını çox aşır. Fazil Mustafa deyir ki, "Bizim mirasımız Məhəmməd Əmin Rəsulzadə və məsləkdaşlarının Rusiyanın işğalı nəticəsində İran bataqlığından qopara bilinən və ilk fürsətdə müstəqilliyini qazana bilən Azərbaycan dövlətidir". Cümlənin ikinci qismində Fazil bəy tamamilə haqlıdır. Mirasımız müstəqillik qazanmış Azərbaycan dövlətidir. Amma Rusiya işğalı nəticəsində deyil. Belə çıxır ki, Azərbaycanın səadəti Rusiya işğalı nəticəsində mümkün olub? Elə isə... Əvvəla, bu, Səfəvi dönəmində olmayıb. Qacarlar dövründə olub. İrana hökm edən Qacarlar da bizdən deyilmi? Bu, başqa söhbətin mövzusudur. Amma bu gün bu müzakirələr qızışdıqca Rusiyanın Cənubi Qafqaz siyasətində, xüsusən, Azərbaycanda çox marağında olduğu şiə-sünni münasibətləri yenidən gündəmə gətirilir, Şah İsmayıl dövründə Şirvanda baş vermiş savaşlar və qırğınlar yada salınır. Kimsə Xətainin ana qatili olduğunu deyir, adekvat olaraq əks arqument - Yavuzun ata qatili olması yada salınır (Xətainin ana qatili olmasını yalnız ehtimal kimi irəli sürürlər. Bunu təsdiq edəcək heç bir qaynaq və mənbə göstərilmir. Amma indi tarixi bu şəkildə yad etmək kimin üçündür?). Orta əsrlərdə yaşamış hansı türk hökmdarını müzakirəyə çıxarsanız, təxminən, buna bənzər mənzərə yaranacaq. Əslində, bu, ən qədim türk hakimiyyət iyerarxiyasında təbii qarşılanan məsələlər olub. Ziya Gökalpın "Türk mədəniyyət tarixi" kitabına istinad etsək, tarixdəki ilk oğuz əcdadımız - Oğuz Xan da, Mete də hakimiyyətə gəlmək üçün (Mete) atası Teomanı, (Oğuz Xan isə) atası Qara xanı və qardaşını öldürmüşdü.

Dünya tarixinə bu günün kuralları ilə yanaşmaq elmi yanaşma hesab oluna bilərmi?

**Avropanın da orta əsrlərindən qan iyi gəlir.**
**Sünni-şiə qırğınlarından daha dəhşətli protestant-katolik vəhşətləri.**
**Avropa bunu unudub və Avropa Birliyini yaradır.**
**Biz isə Türk Birliyinin qapısı ağzında dayanıb sünni-şiə münasibətlərinin tarixini təftiş edirik...**

Təkcə Osmanlının və Səfəvinin deyil, Avropanın da orta əsrlərindən qan iyi gəlir. Varfolomey gecəsi Çaldırandan əlli səkkiz il sonra, özü də elə Çaldıran savaşının baş verdiyi avqustda, Parisdə yaşanmışdı. Sünni-şiə qırğınları Anadolunu qan girdabında boğanda, protestant-katolik vəhşətlərinin ölüm karnavalı Fransaya otuz min məzar qazdırdı. Orta əsrlərin xristian dünyasında fərqli düşündüklərinə görə inkvizasiya tonqallarında neçə min insan yandırıldı. Orta əsrlər Avropanın Antixrist dövrüdür. Cəmaləddin Əfqaninin "İslam elmdə qısırdır" deyən Renana cavabını xatırlayanlar bunu yaxşı bilir: "Fərqli düşüncəyə görə adamları inkvizasiya tonqallarında yandıranlar müsəlmanlar deyildi, xristianlar idi". Avropa bunu unudub və Avropa Birliyini yaradır. Biz isə Türk Birliyinin qapısı ağzında dayanıb keçmişimizi, sünni-şiə münasibətlərinin tarixini təftiş edirik.

**P.S.** Sünni-şiə problemi XIX yüzilin ikinci yarısından etibarən, XX yüzilin əvvəllərinə qədər ruslar tərəfindən məhz bu coğrafiyada ideoloji vasitə olaraq istifadə edildi.

O dövrdə Rusiyaya meyilli şairlərimiz "Yapalaq osmanlı buna bax, kişi İstəyir yerisin tərlan yerişi" deyə şeirlər yazır. Ermənilər isə Azərbaycan türklərinə "bizim davamız sünni Türkiyəyə qarşıdır", Türkiyədə isə "Bizim sünnilərlə işimiz yoxdur, davamız şiə azərbaycanlılarladır" deyirdilər. XX yüzilin əvvəllərində vətəndaşlarımız arasında məzhəb fərqini unutdurmağa çalışan və buna çağıran Əli bəy Hüseynzadə xalqa xitabən:

*Can düşməni təhdid*
*ediyorkən tərəfeyni,*
*Ey xacə, nədir məsələyi*
*şiə və sünni?*

- deyə səslənir. Məhəmməd Hadi isə az qala, fəryad qoparırdı:

*Nə sünni-şiə var Quranımızda,*
*Üxüvvət ləfzi var fürqanımızda.*

Üstündən yüz il ötəndən sonra məzhəb ayrılığı barədə düşüncələri qurdalamağa nə ehtiyac var idi, anlamaq olmur.

**Əfrasiyablıq**

Səfəvilik bu coğrafiyada Əfrasiyablığı canlandırdı. Əfsus ki, burdakı həssas bir məqam geniş mənada diqqətləri cəlb etmir. Yəni, Sultan Səlim Şah İsmayıla yazdığı təhdid məktublarında onu "Əfrasiyabi-əhd" adlandırır, özünü isə Keyxosrovla qiyaslandırır. Bəllidir ki, İran-Turan savaşlarında Turan hökmdarı Əfrasiyab, İran hökmdarı da Keyxosrovdur. Göründüyü kimi, bu tarixi amil Şah İsmayılı Sultan Səlimdən daha çox türk edir.

Ümumiyyətlə, Turan qəhrəmanı Alp Ər Tonqaya osmanlı siyasi-məfkurəvi düşüncəsinin mənfi münasibəti diqqəti tarixin həmin dönəmində daha çox cəlb edir. Sultan Səlimin atası II Bəyazidin Uzun Firdovsi adlı bir türk şairinin "Süleymannamə" adlı əsərini yandırtdığı, yaxud böyük bir qismini ixtisar etdirdiyini qaynaqlar müxtəlif şəkildə xəbər verməkdədir. Türk Firdovsi fars Firdovsiyə rəğmən Əfrasiyabı "milli bir həyəcanla öymüşdür" (N.S.Banarlı). Sultan II Bəyazid tərəfindən bəyənilməyən əsəri üzündən Firdovsi cəlayi-vətən olmuş, Osmanlıdan Səfəviyə sığınmışdı.

Sultan Səlimin yazdığı təhqiramiz məktublarda hər hansı mənada olursa-olsun, dediyim kimi, Əfrasiyab cizgisi qabardılıbsa, bununla yalnız qürur duymaq gərəkir. "Fərmandari-əcəm, sipəhsalari-əzəm, sərdari-müəzzəm, dahhaki-ruzgar, darabi-giridar, Əfrasiyabi-əhd..." Yaxud "Zəmanə Əfrasiyabı Əmir İsmayıl" və s... Zəmanə Əfrasiyabı, yəni zəmanə Alp Ər Tonqası... Bunun nəyi bizim deyil, yaxud o hansı müasir İrandır ki, bu gün Keyxosrov olmağı deyil, Əfrasiyab olmağı seçib, yaxud seçər?..

**Xətainin ay-ulduzlu bayrağı**

Qaynaqlar Şah İsmayılın bayrağında ay-ulduz təsviri olduğunu bildirir. Mən bunu Mirzə Abbaslının 1980-ci illərin əvvəllərində çox dəyərli "Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə" kitabından oxumuşdum. (Kitab 1981-ci ildə nəşr olunmuşdu və böyük həyəcanla oxunurdu). Şah İsmayılın Bağdadda böyük coşqu ilə qarşılandığını yazan müəllif "Cahanarayi Şah İsmayıl Səfəvi"yə istinadən "Şah İsmayıl ay-ulduzlu bayrağı altında Bağdada yaxınlaşdı", - deyə bildirir. Bu isə İranın ənənəvi şiri-xurşid təsvirli bayrağı deyil (ki, son müharibə təbəddülatlarında pəhləvipərəst farslar indiki bayraqlarındakı "Allah" sözünü dərhal şiri-xürşidlə əvəzləyib meydana çıxdılar).

davamı növbəti sayımızda

# Qara fələyin ağ maskası

## Herman Melvillin "Mobi Dik, yaxud Ağ balina" romanı haqqında

1851-ci ildə bu roman işıq üzünə çıxarılanda müəllifinin vur-tut otuz iki yaşı vardı, ona qədər bir neçə kitabı böyük şöhrət qazanmışdı. Gözləmək olardı ki, yazıçının sonradan şah əsəri sayılacaq romanı onun ad-sanını dərhal ən uca zirvəyə qaldıracaq, çünki bu roman maraqlı süjetindən başqa dövrü üçün aktual olan zəngin ensiklopedik biliklər, elmi bilgilər, fəlsəfi suallar, sosial problemlər, məişət detalları, hətta dini-mənəvi məzmunla da yüklənmişdi. Müəllif elə bil gələcəyi gördüyünə görə bütün bildiklərini bir qalın kitaba yığmışdı, sabaha heç nə saxlamamışdı.

Həqiqətən, "Mobi Dik"in nəşrindən sonra - nə az, nə çox - qırx il yaşadısa da, bir daha ciddi ədəbi uğur qazanmadı, indi bütün dünyada adı adıyla qoşa çəkilən şah əsərindən yarımadı, yazmaqdan əli soyudu, vəfatı münasibətiylə yazılan qəzet nekroloqunda da yazıçı kimi yox, Nyu-York gömrüyünün müfəttişi kimi anıldı. Sağlığında yalnız şah əsərini ithaf elədiyi böyük qələmdaşı, dövrünün məşhur yazıçısı Nataniel Hotorn özündən on beş yaş kiçik həmkarının yaradıcı niyyətini düzgün anlamış, onun azman əməyinə yüksək qiymət vermişdi.

Çap olunduğu dövrdə ədəbi tənqidin soyuq qarşıladığı "Mobi Dik" romanı bir də yazıldığından yetmiş il sonra - yalnız iyirminci əsrin ikinci onilliyində dəyər-qiymətini almağa başladı. Əsrin böyük ədibləri onu örnək götürdülər, ondan misal gətirdilər, ona barmaq tuşutdular: Coys "Uliss"ə üslub soraqlayanda romanı özünə bələdçi tutdu, Kafka əsəri yaşadığımız həyatın irrasional alleqoriyası adlandırdı, Folkner "Mobi Dik" kimi monumental bir kitab yazmaq naminə bütün yaradıcılığından keçməyə hazır olduğunu deyib romanı dünya nəsrinin şah əsərləriylə bir cərgəyə qoydu, Heminquey "Qoca və dəniz"də ustadıyla dialoqa girdi, Kamü romanın qəhrəmanı Axavın timsalında özünün qiyamçı insan nəzəriyyəsinə istinad nöqtəsi, illüstrasiya tapdı, Bredberi Melvilli özünə müəllim saymaqla kifayətlənməyib 1956-cı ildə ekrana çıxmış "Mobi Dik" filminin ssenarisini yazdı...

Bütün bunlar müəllifin ölümündən on illər sonra baş verdi. Çox zaman belə olur, söz-sənət tanrısının qədri-qiyməti sağlığında bilinmir, boyu torpağın üstündə dimdik gəzirkən görünmür; onun fani cismi baqi ruhunun boy göstərməyinə əngəl törədir, adamlar onu əcəl gömrüyündən keçib çılpaq ruh şəklinə düşəndən sonra daha asan qavrayırlar.

***

"Mobi Dik" həm asan, həm də çətin oxunan kitablardandır. Romanın süjetinin əsasında balina ovuna çıxmış gəmi heyətinin okean macəraları durur. Ancaq altı-yeddi yüz səhifəlik əsər boyu ana xətdən çoxlu sapma var. Burada balina cəmdəyinin soyulub doğranıb emal olunmasına, o zamanlar Amerikada şam istehsalı üçün əvəzsiz xammal sayılan balina piyinin əridilib çəlləklərə yığılmasına, yaxud da təhkiyəçi qəhrəmanın timsalında müəllifin dini-əxlaqi düşüncələrinin bir traktat üslubunda ifadə olunmasına ayrılmış palaz-palaz səhifələr, fəsillər var. Roman təhkiyəçi personaj İzmailin dilindən qələmə alınsa da, bəzən neçə fəsil boyu baş qəhrəman unudulur, təhkiyənin ağırlığını müəllif öz üstünə götürür. Bəzi fəsillər, sonralar Coysun da "Uliss"də sınaqdan keçirəcəyi kimi, prozaik üslubda yox, dramatik formada, yəni pyes şəklində yazılıb.

Bu gün bir peşəkar redaktor bu kitabı asanlıqla yarıbayarı ixtisar eləyə bilər (Heminquey də romanda artıq fəsillərin olduğunu vurğulamışdı), ancaq yazıldığı dövr üçün əsər üslub örnəyi, yenilik nümunəsi sayılmalıdır. Bu fikri aşağı-yuxarı Stendalın, Balzakın romanlarına, "Səfillər"ə, "Hərb və sülh"ə də aid eləmək olar.

Əsərdə baş verənlər, deyildiyi kimi, baş qəhrəmanın dilindən nağıl olunur, roman onun özünü təqdim eləməsiylə başlanır: "Məni İzmail deyə çağırarsınız". Ad Bibliyadan götürülmədir, İbrahim peyğəmbərin ərəblərin ulu babası sayılan oğlunun adıdır. Ümumiyyətlə, romanda Bibliya süjetləri, xüsusən də Allahın hökmüylə nəhəng balığın qarnından salamat çıxan Yunis peyğəmbər haqqında rəvayətlə intertekstual əlaqələr var.

İzmail quruda darıxdığından, həm də maddi korluq çəkdiyindən Nantaket limanına yollanır ki, balina ovuna çıxası gəmilərdən birinə matros yazılsın. Limana yaxın yerdə gecələdiyi meyxanada o, hansısa vəhşi, adamyeyən tayfa başçısının varisi, böyük balıqların qənimi, nizə atmağın ustası, qırıq-sökük ingilis dilində fikirlərini çətinliklə ifadə eləyən Kvikeqlə tanış olur. Bir otaqda qalan gənclər əvvəl dava həddinə çatsalar da, sonradan dostlaşırlar.

***

Ertəsi gün İzmail liman şəhərindəki kilsəyə gedib keşişin Yunis peyğəmbər haqqında moizəsini heyranlıqla dinləyir. Bilməyənlər üçün rəvayətin qısa məzmununu söyləyək:

Yunis Allahdan belə bir tapşırıq alır ki, Assuriyanın Nineviya şəhərinə gedib əhalini xəbərdar eləsin: əgər bəd əməllərindən əl çəkib günahlarını yumasalar, tövbə qapısında növbəyə durmasalar, Allah o şəhəri sakinlərinin başına uçuracaq, dağıdıb xaraba qoyacaq. Yunis nədənsə bu missiyanı boynuna götürmək istəmir, Tanrının gözündən yayınıb izini itirmək üçün gəmiyə minib başqa şəhərə yön tutur. Allah ərköyün qulunu ağıllandırsın deyə küləyə əmr verib dənizdə tufan qoparır. Gəmi yiyəsi kimin suçu ucbatından cəzaya uğradıqlarını bilməkdən ötrü rəml atıb fal açır, bütün əlamətlər Yunisi nişan verir. Qaçaq peyğəmbər özü də günahını boynuna alır, gəmidəkilərə onu dənizə atmağı məsləhət görür. Bundan sonra dalğalar yatıb gəminin yolunu açır.

Yunisi isə dəryada nəhəng bir balıq udur, Allahın hökmüylə qaçaq peyğəmbər üç gün-üç gecə o balığın qarnında qalır. Bundan sonra Yunis peşman olub tövbə eləyir, Tanrıdan qurtuluş diləyir. Tanrının buyruğuyla balıq onu kənara atır, Yunis Allahın əmrinə müntəzir hala gəlir. Ardınca Nineviyaya gedib küçə-küçə dolaşır, qırx gündən sonra şəhərin yerlə yeksan olunacağını əhaliyə car çəkir. Padşah başda olmaqla bütün şəhər əhli peyğəmbərin xəbərdarlığından bərk təsirlənir, hamılıqla qırx gün oruc tutub günahlarının bağışlanmasını istəyirlər. Allah da onların düz yola gəldiyini görüb tövbələrini qəbul eləyir, günahlarından keçir.

Ancaq Yunis peyğəmbərliyinin çin çıxmadığını görəndə pərt olub Allahdan inciyir, küsüb çölə üz tutur, özünə ölüm diləyir, qızmar günəş altında enliyarpaq bir bitkinin kölgəsinə baş qoyub yorğun canını yuxuya təslim eləyir. Tanrının hökmüylə o bitki quruyur, Yunisin başını deşən gün şüası onu yuxudan yarımçıq oyadır. Qiyamət ehtirasından nəsibini almayan peyğəmbər gileylənəndə Tanrı onu belə qınayır: sən başına kölgə salan bir yarpağın quruması dözmürsən, indi deyirsən mən heç nədən Nineviya kimi gözəl, möhtəşəm şəhəri yüz iyirmi minlik əhalinin, sağı soldan ayırmayan yüz iyirmi min zavallının başınamı uçurum?

Aydındır ki, Tanrı şəhər əhalisindən də çox öz elçisinin o dağıntılar altında qalmağına rüsxət vermir, ilk növbədə tövbəkar günahkarların yox, seçdiyi adamın dünyanın ən möhtəşəm, ən abad şəhərinin xarabalıqları altında əbədi əzaba, əbədi lənətə məhkum olunmasını istəmir. Yunis peyğəmbərin bu həqiqəti anlayıb-anlamadığını bilmirik, ancaq əgər peyğəmbərlər panteonunda yer tutubsa, deməli, aldığı dərsdən sonra Əyyub kimi səbrinə sığınıb, əhdinə sadiq qalıb...

davamı növbəti sayımızda



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Keçmişdən gələcəyə uzanan yaddaş



## Mədəniyyətimizin gücü onun qədimliyində deyil, yaşatdığı ruhdadır...

Azərbaycanı yalnız xəritədə müəyyən sərhədləri olan bir ölkə kimi təqdim etmək mümkün deyil. Çünki bu coğrafiyanın hər qarışında minilliklərin yaratdığı tarix, nəsillərdən-nəsillərə ötürülən mənəvi dəyərlər, zəngin dövlətçilik ənənələri, xalq yaradıcılığı, elm, ədəbiyyat və incəsənətin izləri yaşayır. Məhz bu zəngin irs xalqımızın milli kimliyini formalaşdıran əsas dayaqlardan biri hesab olunur.

Bu baxımdan dövlətçilik tariximizin təbliği sadəcə keçmişdə baş vermiş hadisələrin xatırladılması deyil, həm də bugünkü nəslin öz köklərini anlaması, müstəqilliyin hansı tarixi proseslərin nəticəsində formalaşdığını dərk etməsi və dövlətçilik düşüncəsinin gələcək nəsillərə ötürülməsi deməkdir. Lakin dövlətçilik yalnız siyasi tarixdən ibarət deyil. Onun arxasında bütöv bir xalqın dili, mədəniyyəti, adət-ənənələri, ailə münasibətləri, qonaqpərvərlik anlayışı, musiqisi, sənəti, mətbəxi və gündəlik həyat tərzi dayanır.

dayanan mənəvi dəyəri izah etmək və onu müasir həyatın imkanları ilə birləşdirmək lazımdır.

Bu gün sosial media da mədəniyyətimizin təbliği üçün böyük imkanlar yaradır. Bir vaxtlar yalnız kitabxanalarda və arxivlərdə araşdırılan tarixi faktları, qədim sənət nümunələrini, folklor materiallarını və milli mətbəx nümunələrini bu gün qısa videolar, podkastlar, fotohekayələr və sənədli layihələr vasitəsilə milyonlarla insana çatdırmaq mümkündür. Əsas məsələ isə bu məzmunun sadəcə nümayiş xarakteri daşımaması, izləyicidə maraq yaratması və onu araşdırmağa sövq etməsidir”.

### Ənənəni yaşatmaq üçün...

Mövzu ilə bağlı fikirlərini “Yeni Azərbaycan”la bölüşən sosioloq Əhməd Qəşəmoğlunun sözlərinə görə, milli adət-ənənələrin təbliği dedikdə yalnız bayram günlərində milli geyimlər nümayiş etdirmək və ya folklor kollektivlərinin çıxışlarını təşkil etmək nəzərdə tutulmamalıdır: “Ənənəni yaşatmaq üçün onun mahiyyətini gənc nəslə başa salmaq, həmin adətin arxasında

### “Ailə yaddaşı” layihələrini təşkil etmək faydalı olar

Ə.Qəşəmoğlunun fikrincə, milli irsin qorunmasında yaşlı nəslin təcrübəsindən istifadə xüsusi əhəmiyyət daşıyır: “Bu gün bir çox ailələrdə nənə və babaların bildiyi qədim bayatılar, laylalar, mərasim qaydaları, yerli mətbəx nümunələri və müxtəlif folklor hekayələri yazıya alınmadan itmək təhlükəsi ilə üz-üzədir. Ona görə də məktəblərdə “ailə yaddaşı” layihələrini təşkil etmək, şagirdlərə nənə-babalarından eşitdikləri adətləri, bayatıları və hekayələri toplamaq tapşırığı vermək çox faydalı olardı. Belə layihələr həm uşağın ailə tarixini öyrənməsinə, həm də milli yaddaşın qorunmasına xidmət edər”.

### Milli mədəniyyət o zaman yaxşı tanınır ki...

Ə.Qəşəmoğlu qeyd edib ki, Azərbaycan mədəniyyətinin xaricdə təbliği də milli irsin qorunmasının mühüm hissəsidir: “Mədəniyyətimizi dünyaya təqdim edərkən yalnız “bizim belə adətimiz var” deməklə kifayətlənməməliyik. Həmin ənənənin tarixini, fəlsəfəsini və insan həyatındakı yerini də göstərməliyik. Muğamı sadəcə musiqi kimi deyil, xalqın düşüncə və hiss dünyasını ifadə edən sənət kimi, çay süfrəsini sadəcə içki kimi deyil, qonaqpərvərliyin göstəricisi kimi, dolmanı isə sadəcə milli yemək kimi deyil, paylaşma və ailə ənənəsi ilə bağlı mədəni nümunə kimi təqdim etmək daha təsirli nəticə verə bilər. Milli mədəniyyət o zaman daha yaxşı tanınır ki, insanlar onun yalnız formasını deyil, ruhunu da anlayırlar”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti üzrə hazırlanmışdır**

### Təbliğ ilk növbədə ailədən başlamalıdır

Sosioloq qeyd edib ki, milli adət-ənənələrin təbliği ilk növbədə ailədən başlamalı, daha sonra məktəb, media və mədəniyyət müəssisələri tərəfindən davam etdirilməlidir: “Milli adət-ənənə yalnız müəyyən günlərdə xatırlanan mərasimlər toplusu deyil, xalqın özünü ifadə etdiyi böyük mənəvi sistemdir. Ona görə də ənənələrimizi qorumaq istəyiriksə, ilk növbədə onların mahiyyətini uşaqlara izah etməliyik. Eyni yanaşma toy, yas, qonaqpərvərlik, böyüyə hörmət, ailə münasibətləri, milli mətbəx və xalq sənətləri ilə bağlı ənənələrə də tətbiq edilməlidir”.

### Gələcəyə yönəlmiş strateji məsələ

Sosioloqun sözlərinə görə, ənənələri gələcək nəsillərə çatdırmağın əsas şərti onları gənclərin həyatından uzaqlaşdırmamaqdır: “Ənənəni qorumağın ən yaxşı yolu onu həyatın bir hissəsinə çevirməkdir. Əgər gənc milli musiqiyə qulaq asırsa, milli sənətkarlıqla maraqlanırsa, öz tarixini oxuyur, milli mətbəx nümunələrini hazırlayır və bütün bunları müasir texnologiyalar vasitəsilə dünyaya təqdim edirsə, deməli, həmin irs yaşayır. Çünki mədəniyyət yalnız keçmişdən bizə qalan miras deyil, həm də bu gün yaratdığımız və sabah gələcək nəsillərə ötürəcəyimiz dəyərdir.

Məhz buna görə milli irsin təbliği keçmişə nostalji baxış deyil, gələcəyə yönəlmiş strateji məsələdir. Öz tarixini, dilini, mədəniyyətini və adət-ənənələrini bilən gənc dünyaya daha inamla açılır, başqa xalqların mədəniyyətinə hörmət göstərməklə yanaşı, öz milli kimliyini də qorumağı bacarır. Milli dəyərləri qorumağın ən doğru yolu isə onları dəyişməz bir xatirə kimi saxlamaq yox, zamanın tələblərinə uyğun şəkildə yaşatmaqdır”.

*Yeganə BAYRAMOVA*



## “Sabah” Çempionlar Liqasının tarixinə düşüb

“Sabah” klubu UEFA Çempionlar Liqasında tarixi uğura imza atıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan təmsilçisi turnirin təsnifat mərhələsindən əsas raunda vəsiqə qazanan ən gənc komanda olub. 2017-ci ildə təsis edilən klub cəmi 9 ildən sonra Çempionlar Liqasının liqa mərhələsinə yüksəlib.

Daha əvvəl bu rekord Rusiyanın “Krasnodar” klubuna (12 il) məxsus olub.

Qeyd edək ki, “Sabah” Çempionlar Liqasının pley-off mərhələsində İsrailin “Hapoel” (Beer-Sheva) klubunu iki oyunun nəticəsinə əsasən 6:4 hesabı ilə məğlub edərək liqa mərhələsinə vəsiqə qazanıb. “Bayquşlar” “Qarabağ”dan sonra turnirin əsas mərhələsinə yüksələn ikinci Azərbaycan klubu olub.

Peşəkar Futbol Liqası xəbər verir ki, Bakı klubu buna pley-offda İsrailin “Hapoel” (Beer-Şeva) komandasını mübarizədən kənarlaşdırmaqla nail olub - 1:2, 5:2.

Azərbaycan futbolu tarixində 3-cü dəfə təmsilçimiz qitənin ən nüfuzlu klub turnirinin əsas mərhələsində oynayacaq. Bunadək “Qarabağ” 2017-2018 və 2025-2026 mövsümlərində belə uğura imza atıb.

Bu uğur sayəsində “Sabah” bir neçə rekordla ölkə futbolu tarixinə düşüb. Paytaxt təmsilçisi UEFA Çempionlar Liqasındakı debüt mövsümündə əsas raunda qədər irəliləyən ilk Azərbaycan komandasıdır.

Valdas Dambrauskasın yetirmələri həm də UEFA Çempionlar Liqasında 4 mərhələ adlayaraq əsas raunda vəsiqə qazanan ilk və yeganə Azərbaycan klubu olub.




Ümumilikdə isə tarixdə 3-cü dəfə Azərbaycan klubu əsas mərhələyə qədər 4 tur keçib. “Qəbələ” 2015-2016 və 2016-2017 mövsümlərində UEFA Avropa Liqasında 4 komandanı mübarizədən kənarlaşdırdıqdan sonra qrupa vəsiqə əldə edib. “Sabah” “Hapoel”ə qədər I təsnifat mərhələsində Uelsin TNS komandasını (2:0, 2:1), II təsnifat mərhələsində Finlandiya təmsilçisi “KuPS”u (1:0, 2:0), III təsnifat mərhələsində Danimarkanın “Orxus” klubunu (1:2, 4:0) mübarizədən kənarlaşdırıb.

Bundan başqa, “Sabah” qələbə sayında da rekord vurub. Bakı təmsilçisi bir mövsümdə təsnifat və pley-off mərhələlərində 6 qələbə qazanan ilk Azərbaycan klubu olub. Bununla da qrup və ya liqaya yüksələnədək 5 qələbə qazanan “Qarabağ”la “Qəbələ”nin rekordu yenilənib. 2013-2014, 2023-2024 və 2025-2026 mövsümlərində “Qarabağ”, 2016-2017 mövsümündə “Qəbələ” 5 qələbə qazanıb.

“Sabah” cari mövsüm Azərbaycanın UEFA reytinqinə 1,500 xal qazandırıb. Bu, təsnifat və pley-off mərhələləri üçün ölkə futbolu tarixinin rekordunun təkrarıdır. 2023-2024 mövsümündə “Qarabağ” 5 qələbə və 2 heç-heçə ilə eyni göstəriciyə - 1,500 xala sahib çıxıb.

## Dünya mətbuatı “Sabah”ın möhtəşəm geridönüşündən yazır: “Unudulmaz futbol dramı”

“Sabah” futbol klubunun UEFA Çempionlar Liqasının pley-off mərhələsində İsrailin “Hapoel” (Beer-Şeva) komandası üzərində qazandığı dramatik qələbə (5:2, ümumi hesab 6:4) və turnirin liqa mərhələsinə vəsiqəni təmin etməsi dünya idman mətbuatının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, beynəlxalq media resursları Azərbaycan çempionunun bu uğurunu geniş işıqlandırıb.

ABŞ-nin “Associated Press” (AP) xəbər agentliyi 2017-ci ildə təsis olunmuş Bakı klubunun qısa müddətdə Çempionlar Liqasının əsas mərhələsinə adlamasını böyük sensasiya adlandırıb. Materialda Tellur Mütəllimovun matçın 90+4-cü dəqiqəsində vurduğu qol, Orfe Mbina və Coy Lens Mikelsin əlavə vaxtdakı dəqiq zərbələri ilə oyunun taleyini həll etməsi xüsusi qabardılıb.

Türkiyənin Anadolu Agentliyi isə “Sabah”ın “Qarabağ”dan sonra bu mötəbər turnirin əsas mərhələsinə vəsiqə qazanan ikinci Azərbaycan komandası olduğunu diqqətə çatdırıb.

“Fanatik” və “Fotomaç” qəzetləri Bakıdakı cavab qarşılaşmasını “Unudulmaz futbol dramı” kimi qiymətləndirib. “NTV Spor” nəşri cəmi 9 illik tarixə malik bir klubun 4 təsnifat mərhələsini ardarda keçərək qrup mərhələsinə adlamasını Avropa futbolu üçün nadir göstərici hesab edib.

“Hürriyet” nəşri isə komandanın maliyyə resursları baxımından özündən daha güclü rəqibləri mübarizədən kənarlaşdırmasına diqqət çəkərək yazıb: “Heyətinin ümumi dəyəri təxminən 17 milyon avro olan Azərbaycan təmsilçisi daha böyük büdcəli rəqibini sıradan çıxararaq, Avropa futbolunun ən çox danışılan komandalarından birinə çevrildi”.

İsrailin “The Times of Israel” qəzeti nəticəni “Çempionlar Liqasına çatmağa saniyələr qalmış “Hapoel” əlavə vaxtda “Sabah”a uduzdu” başlığı ilə təqdim edib. Məqalədə final fitinə 19 saniyə qalmış vurulan bərabərlik qolunun Beer-Şeva təmsilçisini psixoloji olaraq sarsıtdığı, əlavə vaxtda alınan qırmızı vərəqələrin (Cibril Diop və Eliel Perets) isə klubu tamamilə oyundan qopardığı bildirilib.

Ölkənin aparıcı idman portalları “Sport5” və ONE bu məğlubiyyəti “Bakı faciəsi” adlandıraraq “Sabah”ın matç boyunca nümayiş etdirdiyi yüksək təzyiqi və əzmkar oyunu xüsusi vurğulayıblar.



**4 eleme turu geçti: Sadece 8 yıl önce kurulan Sabah Şampiyonlar Ligi'nde**

Haber Merkezi

Google'da tercih edilen kaynak olarak ekleyin

Resmi

25.08.2026 22:37

**Azerbaycan temsilcisi Sabah, sahasında HB Sheva'yı uzatmalar sonucunda yenerek Şampiyonlar Ligi'ne katılma hakkı kazandı.**



AA  Search

US-Iran war  Hormuz crisis  Russia-Ukraine war

SPORTS  ASIA - PACIFIC

**Sabah become 2nd Azerbaijani team to reach Champions League league phase**

Azerbaijani club wins 6-4 on aggregate to secure place in league phase for 1st time in club's history

Efe Ozkan

26 August 2026 • Update: 26 August 2026



THE TIMES OF ISRAEL

**Hapoel Beersheba, seconds from reaching UEFA Champions League, loses to Sabah in extra time**

Azeri home team overcomes first-leg loss to draw even, forcing extra time, and then vanquishes Israeli club for aggregate score of 6-4; no Israeli team has qualified since 2022

- See more Times of Israel on Google - add us as a Preferred Source

By AP and TOI STAFF

Today, 12:57 am

SHARE

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4498
Sifariş: 1097
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova